# ELM

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı

Qüvvət elmdədir...

Nizami Gəncəvi

НАУКА

Орган Президиума Национальной академии наук Азербайджана

SCIENCE

Newspaper of the Presidium of the Azerbaijan National Academy of Sciences

№ 05 (1402) ❖ Cümə, 9 fevral 2024-cü il ❖ Qəzet 1984-cü ildən nəşr olunur




# 92,05%

# Yeni tarixi dövrün başlanğıcı

## İlham Əliyev seçicilərin 92,05 faizinin səsini qazanaraq seçkilərin qalibi olub

# Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Xankəndidə səs veriblər



Fevralın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Xankəndi şəhərində 122 saylı seçki dairəsinin 14 saylı seçki məntəqəsində səs veriblər.











## *Akademik İsa Həbibbəyli:*
## Növbədənkənar prezident seçkiləri ölkəmizdə yeni tarixi dövrün başlanğıcı olacaq

**Gördüyünüz kimi, səsvermədə böyük fəallıq var. Xalqımız böyük ruh yüksəkliyi ilə seçki məntəqəsinə gəlir və arzu etdiyi namizədə səs verir. Mən müşahidəçi kimi bu gün Nərimanov və Səbail rayonlarında seçkiləri izləmişəm. Seçki məntəqələrinin qarşısında seçicilərin növbəyə dayandığının şahidi olmuşam.**




Bunu AZƏRTAC-a müsahibəsində AMEA-nın prezidenti akademik İsa Həbibbəyli söyləyib.

"Seçici fəallığı ölkəmizdə demokratik cəmiyyətin inkişaf etməsinin göstəricisidir. Sözün əsil mənasında, builki seçkilər Azərbaycanın Zəfər seçkiləridir. Azərbaycanın bütün ərazisində keçirilən ilk seçki kimi də 7 fevral-növbədənkənar prezident seçkiləri tarixi hadisədir. Hesab edirəm ki, 7 fevral seçkiləri həm də ölkəmizdə yeni tarixi dövrün başlanğıcı olacaq", - deyə AMEA prezidenti bildirib.

## *Akademik İradə Hüseynova:*
## Builki seçkilər Azərbaycan tarixinin yeni mərhələsinə başlanğıc verəcək

**Builki seçkilər Azərbaycan tarixinin yeni, daha bir yüksək mərhələsinə başlanğıc verəcək. Müstəqillik dövründə ilk dəfədir ki, seçki məntəqələri respublikanın suverenliyinin ötən il tam təmin olunduğu ərazilər də daxil olmaqla, bütün respublikanı əhatə edir.**



Bunu AZƏRTAC-a müsahibəsində AMEA-nın vitse-prezidenti akademik İradə Hüseynova söyləyib. İradə Hüseynova bildirib ki, işğaldan azad edilmiş ərazilərdə, xüsusilə də Xankəndi şəhərində seçki məntəqələrinin qurulması hər bir azərbaycanlının qəlbini fərəh hissi ilə doldurur. Bu mənada Zəfər seçkiləri adlandıra biləcəyimiz növbədənkənar prezident seçkiləri, həmçinin müstəqilliyimizin, ərazi bütövlüyümüzün və suverenliyimizin daha bir təsbiti, son illərdə bu istiqamətdə gedən proseslərin yekunu, zirvə nöqtəsidir.

"Azərbaycan xalqı bugünkü seçkilərdə siyasi iradə, vətəndaş mövqeyi və mütəşəkkillik göstərməklə bütün dünyaya həqiqi demokratiya dərsi verməkdədir. Biz bu günə qədər qazanılmış nailiyyətlərin möhtəşəmliyini qeyd etməklə gələcəyə də böyük ümidlərlə və inamla baxırıq. Azərbaycan dövlətinin və xalqının yeni milli hədəflərə də ən qısa zamanda yetişəcəyi şübhəsizdir. Müzəffər xalqın nümayəndəsi kimi inanırıq ki, növbəti mərhələdə bundan da böyük uğurların şahidi olacağıq", - deyə akademik İradə Hüseynova əminliyini bildirib.

## *Akademik Rasim Əliquliyev:*
## Builki prezident seçkiləri ölkəmizin tarixində böyük əhəmiyyətə malikdir

**Builki prezident seçkiləri ölkəmizin tarixində böyük əhəmiyyətə malikdir. Bu seçkilər xalqımızın həyatında önəmli bir hadisədir.**




Bunu önəmli edən əsas hadisələrdən biri ondan ibarətdir ki, artıq müstəqil Azərbaycan dövlətinin ərazisi tam bərpa olunub. İkinci Qarabağ müharibəsindən sonra lokal xarakterli antiterror tədbirlərinin keçirilməsi nəticəsində Xankəndi və işğal altında olan digər ərazilərimizin azad olunması, vətəndaşlarımızın öz doğma yurdlarına qayıtması bizi sevindirir. Belə bir şəraitdə prezident seçkilərinin keçirilməsi çox məntiqlidir. Çünki ölkəmizin qarşısında yeni hədəflər var. Xalqımız bu seçkidə böyük ruh yüksəkliyi ilə iştirak edir. Hər bir vətəndaş öz iradəsini sərbəst ifadə edir.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində AMEA-nın vitse-prezidenti akademik Rasim Əliquliyev söyləyib.

Akademik vurğulayıb ki, Azərbaycanda həyata keçirilən sosial-iqtisadi strategiya ölkəmizi dünyanın ən dinamik inkişaf edən dövlətləri sırasına çıxarıb: "Azərbaycanın regionda xüsusi bir ölkəyə çevrilməsi, geosiyasi proseslərdə Azərbaycanın çəkisinin artması ölkəmizin beynəlxalq səviyyədə imicinin dəyişməsinə səbəb olub. Beynəlxalq qurumlarda Azərbaycanın səsi eşidilir, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un 2024-cü ildə Azərbaycanda keçirilməsi ölkəmizin siyasətinə olan inamdan irəli gəlir.

Akademik Rasim Əliquliyev vurğulayıb ki, Azərbaycanın daha da müasirləşdirilməsi, inkişaf etdirilməsi, dünyanın aparıcı təşəbbüslərinə qoşulması, ölkəmizin "yaşıl dünya" naminə formalaşması, "yaşıl texnologiyalar" əsasında yeniləşməsi, xalqımızın rifahının yüksəldilməsi, yeni iqtisadi hədəflərə doğru inkişaf etməsi qarşıda duran əsas vəzifələrdəndir. Bununla bağlı ölkəmizdə müxtəlif strateji əhəmiyyətə malik sənədlər qəbul edilib. Bütün bunlar 2030-cu ilədək sosial-iqtisadi inkişafla bağlı olan hədəflərdir.

# AMEA-da Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunmuş elmi konfrans



**AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunda "Naxçıvan Muxtar Respublikası Azərbaycan dövlətçiliyində" mövzusunda elmi konfrans keçirilib.**

Tədbir Prezident İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" 30 dekabr 2023-cü il tarixli Sərəncamı çərçivəsində baş tutub.

Konfransı giriş sözü ilə açan AMEA-nın prezidenti akademik İsa Həbibbəyli ölkə başçısının Sərəncamından irəli gələrək AMEA-nın Rəyasət Heyəti tərəfindən Naxçıvanın tarixinin, mədəniyyətinin, sosial-iqtisadi və mədəni-mənəvi inkişafının tədqiqi və təbliği məsələlərinə dair, eləcə də Ümummilli Lider Heydər Əliyevin dövlət quruculuğu siyasəti və Naxçıvanın sosial-iqtisadi, mədəni-mənəvi inkişafı, müstəqilliyin ilk illərində Naxçıvanın erməni təcavüzündən qorunmasında və blokadadan çıxarılmasında Heydər Əliyevin tarixi xidmətləri, Heydər Əliyevin Naxçıvanda elmin inkişafı strategiyası, Prezident İlham Əliyevin dövlət siyasətində Naxçıvanın iqtisadi, elmi-mədəni, infrastruktur və hərbi potensialının gücləndirilməsi və inkişaf etdirilməsi strategiyasına uyğun geniş Tədbirlər planının hazırlanması barədə qərarın qəbul olunduğunu deyib.

AMEA-da Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunmuş geniş tədbirlərə start verildiyini deyən akademik İsa Həbibbəyli Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın çoxəsrlik dövlətçilik tariximizdə mühüm yer tutduğunu diqqətə çatdırıb. AMEA rəhbəri vurğulayıb ki, Naxçıvan şəhəri Atabəylər dövlətinin paytaxtı olub, ərazisində Çuxursəəd bəylərbəyliyi, Naxçıvan xanlığı, Araz-Türk Cümhuriyyəti, Naxçıvan Muxtar Diyarı, Naxçıvan MSSR-sı yaradılıb, müasir dövrdə isə Azərbaycanın əzəli torpağı kimi Naxçıvan Muxtar Respublikasına çevrilib.

XX əsrin əvvəllərində ermənilərin Naxçıvana qarşı ərazi iddiaları ilə çıxış edərək mütəmadi basqınlar təşkil etdiklərini deyən akademik İsa Həbibbəyli yaranmış təhlükənin aradan qaldırılmasında Behbud ağa Şahtaxtinskinin xüsusi xidmətləri olduğunu, onun təşəbbüsü ilə Naxçıvanda referendum keçirilərək bölgənin Azərbaycanın tərkibində saxlanıldığını, Türkiyənin himayədar kimi çıxış etdiyi Moskva və Qars müqavilələrinin isə ermənilərin ümidlərini puç etdiyini vurğulayıb.

"Ötən əsrin 80-ci illərinin sonu 90-cı illərinin əvvəllərində Ulu Öndər Heydər Əliyev və Naxçıvan əhalisi qətiyyət göstərərək ermənilərin yenidən baş qaldırmış ərazi iddialarını neytrallaşdırdılar. "Sovet" və "Sosialist" sözləri Muxtar Respublikanın adından çıxarıldı, bu isə faktiki SSRİ-nin dağılması haqqında qərar demək idi. Ümummilli Liderin həmin illərdə Türkiyə ilə yaxın münasibətlər qurması, Türkiyənin keçmiş prezidenti Süleyman Dəmirəlin Naxçıvana ziyarətə gəlməsi, Ümid körpüsünün açılması, müdafiə qüvvələrinin təşkili, sovet qoşunlarının bölgədən çıxarılması, Naxçıvanda Ulu Öndərin sədrliyi ilə Yeni Azərbaycan Partiyasının yaradılması və digər mühüm addımlar blokada şəraitində yaşayan Muxtar Respublikanın taleyində mühüm rol oynadı. Heydər Əliyev Naxçıvanı qorumaqla həm də Azərbaycan dövlətçiliyini xilas etmiş oldu", - deyə AMEA prezidenti diqqətə çatdırıb.

Müasir dövrdə isə Naxçıvanın özünün inkişafının yeni mərhələsinə qədəm qoyduğunu deyən akademik İsa Həbibbəyli ölkə başçısı tərəfindən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın qəbul olunduğunu, ötən il Prezident İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Naxçıvanda görüşərək birgə gələcək layihələrə imza atdıqlarını söyləyib. Qeyd edib ki, gələcəkdə Zəngəzur dəhlizinin və digər kommunikasiya vasitələrinin açılması isə Naxçıvanı Avropa ilə Asiya arasındakı nəqliyyat dəhlizlərinin mərkəzinə çevirəcək.

AMEA-nın elmi müəssisə və təşkilatlarında Naxçıvanın qədim tarixi, zəngin mədəni mühiti, folkloru, arxeologiya və etnoqrafiyasının öyrənilməsi istiqamətində önəmli tədqiqatların aparıldığını deyən akademik İsa Həbibbəyli dövlət başçısının Sərəncamının yeni araşdırmalar üçün geniş meydanlar açdığını deyib və il ərzində Akademiyada Muxtar Respublikanın 100 illiyi ilə bağlı tədbirlərin davam etdiriləcəyini söyləyib.

Sonra çıxış edən Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru f.e.d., professor İlham Məmmədzadə isə Muxtar Respublikanın Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasındakı roluna toxunub, Ulu Öndərin ermənilərin Naxçıvana olan ərazi iddialarının qarşısını almasından, apardığı quruculuq işlərindən danışıb. Bildirib ki, Ümummilli Liderin Muxtar Respublikada həyata keçirdiyi geniş tədbirlər həmin dövrdə dövlət müstəqilliyi təhlükə altında olan Azərbaycana yeni nəfəs gətirdi, Ulu Öndərin liderliyində Naxçıvan blokadadan çıxarıldı, Azərbaycan isə özünün gələcək inkişafına qədəm qoydu.

Konfransda, həmçinin Fəlsəfə və Sosiologiya İnstitutunun direktor müavini tarix elmləri doktoru Eynulla Mədətli "Naxçıvanın qorunmasında Türkiyənin rolu və muxtariyyətə gələn yol (1918-1921)", tarix üzrə fəlsəfə doktoru, dosent Kamran İsmayılov "1921-1924-cü illərdə Naxçıvanda siyasi vəziyyət və Muxtar Respublikanın yaranması", fəlsəfə elmləri doktoru Füzuli Qurbanov "Bir millət, iki dövlət formulunun həyata keçirilməsinin Naxçıvan mərhələsi" və siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Günel Məlikli "Heydər Əliyev və Naxçıvanda Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi" mövzusunda məruzələrlə çıxış ediblər.

# AMEA-nın prezidenti "Elm" nəşriyyatında iş şəraiti ilə tanış olub

**AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Azərbaycan Milli Elmlər Akademiyasının "Elm" nəşriyyatında olub.**

AMEA rəhbəri "Elm" nəşriyyatının maddi-texniki bazası və son günlər burada yaradılmış iş şəraiti ilə tanış olub, 2024-cü il üzrə müəssisənin fəaliyyət planı müzakirə edilib.

Akademik İsa Həbibbəyli nəşriyyatın işinin və yeni korporativ imicinin günün tələbləri səviyyəsində qurulması, maddi-texniki bazasının gücləndirilməsi, beynəlxalq əməkdaşlığın genişləndirilməsi və s. istiqamətlərdə nəşriyyat rəhbərliyinə tapşırıqlarını verib.

# Akademik İsa Həbibbəyli Rusiya Elmlər Akademiyasının 300 illiyi münasibətilə təbrik məktubu ünvanlayıb

***AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Rusiya Elmlər Akademiyasının (REA) prezidenti akademik Gennadi Krasnikova REA-nın 300 illiyi münasibətilə təbrik məktubu ünvanlayıb.***



***Məktubda deyilir:***

*"Hörmətli Gennadi Yakovleviç!*

*Azərbaycan Milli Elmlər Akademiyası Rusiya Elmlər Akademiyasına öz dərin hörmət və ehtiramını çatdırır.*

*Azərbaycan Milli Elmlər Akademiyası və şəxsən öz adımdan Sizi və Rusiya Elmlər Akademiyasının (REA) bütün kollektivini olduqca əlamətdar bir hadisə - REA-nın 300-illiyi münasibətilə ürəkdən təbrik edirəm.*

*Elm tarixində bu cür yaddaqalan yubiley tarixi uzun və şərəfli yola bir daha nəzər salmaq, Akademiyanın nailiyyətlərini, əsas inkişaf mərhələlərini və baş vermiş parlaq hadisələri təhlil etmək, akademik elmin yaranmasında böyük xidmətləri olan görkəmli alim və mütəxəssisləri yad etmək, həmçinin Akademiyanın gələcək inkişafına yönələn yeni perspektivli ideyaları müəyyən etmək üçün əla fürsətdir.*

*1724-cü ildən başlayaraq Rusiya Elmlər Akademiyası çətin iqtisadi və sosial-siyasi şəraitə baxmayaraq şərəfli yol keçmiş, yüksək ixtisaslı elmi kadrların hazırlanması üzrə tanınmış elmi məktəblərin yarandığı dövlət elm müəssisəsi və elmin baş qərargahı statusunu qoruyub saxlaya bilmişdir. REA-nın müxtəlif inkişaf mərhələlərində dövrün tələblərinə uyğun olaraq riyaziyat, mexanika, astronomiya, fizika, kimya və mineralogiya, XVIII əsrin ikinci yarısında isə botanika və embriologiya kimi elm sahələri inkişaf etmişdir. XIX əsrdə Akademiyanın fəaliyyəti coğrafi tədqiqatlar, daha sonra tarix, filologiya, ədəbiyyatşünaslıq, XX əsrdə isə texniki və təbiət elmlərindən tutmuş humanitar və ictimai elmlərin bütün sahələrini əhatə etmişdir. Hazırda Rusiya Elmlər Akademiyası ən müasir elm sahələri: kosmos, nanotexnologiyalar, süni intellekt, rəqəmsal inkişaf, biotibb, informatika üzrə dünyanın ən qabaqcıl elm mərkəzlərindən biri kimi qəbul olunur.*

*Elmi prioritetlərin müəyyənləşdirilməsi, fundamental və tətbiqi elmi istiqamətlərin konsepsiyalarının hazırlanmasının əsasında Rusiya və dünya elminə əhəmiyyətli töhfələr verən REA-nın görkəmli alimləri tərəfindən irəli sürülmüş orijinal dərin ideyalar durur. Yüksək missiyasına sadiq qalan peşəkar kollektiv sələflərinin elmi irsi və zəngin təcrübəsinin dəyərini bilir, mədəni irs və tarixi dəyərlərin qorunmasına, elm və təhsilin inkişafına yönələn ənənələri daha da inkişaf etdirir. Sevindirici haldır ki, elmi-texniki tərəqqi və innovativ layihələrin REA-da həyata keçirilməsi çoxtərəfli səmərəli əməkdaşlığa təkan verib.*

*Qeyd etməyi əhəmiyyətli hesab edirəm ki, MDB və Şərqi Avropa ölkələrində vaxtilə REA-nın ənənələri və təcrübəsi əsasında yaradılmış elmlər akademiyalarının bu gün öz yollarını uğurla davam etdirmələri bu şərəfli yubileyə ən böyük hesabatdır.*

*Azərbaycan Milli Elmlər Akademiyası uzun illər davam edən səmərəli əməkdaşlığı, bu illər ərzində Azərbaycan və Rusiyanın elmi təşkilatları arasında yaranan tərəfdaşlıq münasibətlərini və qarşılıqlı anlayışı yüksək qiymətləndirir. Əminəm ki, ölkələrimizin elmlər akademiyaları arasında qurulan tarixi əməkdaşlıq ənənələri bundan sonra da uğurla inkişaf edəcək, elmi tərəqqi naminə yaradıcı fəallığın möhkəmləndirilməsinin təməlini təşkil edəcək.*

*Hörmətli Gennadi Yakovleviç!*

*İcazə verin Sizi və Sizin simanızda Rusiya Federasiyasının elmi ictimaiyyətini bu mühüm və parlaq hadisə - REA-nın 300-illiyi münasibətilə bir daha təbrik edim! Hörmətli həmkarlarımıza möhkəm cansağlığı, tükənməz enerji, yaradıcılıq uğurları və elmin inkişafına yönələn nailiyyətlər arzulayıram.*

*Hörmətlə,*

***İsa Həbibbəyli***
***AMEA-nın prezidenti, akademik"***

# Akademiyanın yeni loqotipinin hazırlanması ilə bağlı müşavirə

**AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Akademiyanın yeni loqotipinin - embleminin hazırlanması məqsədilə elan olunmuş müsabiqə ilə bağlı müşavirə keçirib.**





Tədbiri giriş sözü ilə açan AMEA-nın prezidenti akademik İsa Həbibbəyli dövlətin elm siyasətinə uyğun olaraq son illərdə bu elm ocağında yeni islahatlara başlanıldığını və bütün bunların alimlərin elmi fəaliyyətlərinin inkişafına xidmət etdiyini bildirib. O, yeniləşən Akademiyada həyata keçirilən islahatlar içərisində elmin populyarlaşdırılması və ictimaiyyətlə əlaqələrin yeni əsaslar üzərində qurulması, müasir elmi prioritetlərin müəyyənləşdirilməsi, AMEA-nın cəmiyyətdə korporativ imicinin formalaşdırılması və onun təbliği kimi məsələlərin əsas istiqamətlərdən olduğunu vurğulayıb.

AMEA-nın inkişafının hazırkı yeniləşmə mərhələsində görülən işlərdən danışan akademik İsa Həbibbəyli Azərbaycan xalqının etnogenezinin, arxeologiyasının, etnoqrafiyasının, tarixinin müasir çağırışlar, o cümlədən Azərbaycançılıq prinsipləri əsasında araşdırılmasına yönəlmiş islahatlar çərçivəsində AMEA-nın yeni Nizamnaməsinin təsdiq edildiyini, AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun və Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun bazasında müvafiq olaraq Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutu, eləcə də Arxeologiya və Antropologiya İnstitutunun yaradıldığını diqqətə çatdırıb. Alim, həmçinin dövrün çağırışlarını nəzərə alaraq Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutunda Qarabağ müharibəsinin tarixi və Böyük Qayıdış hərəkatı şöbəsinin, həmçinin institutlarda Kadrlar şöbələrinin bazası əsasında İnsan resursları şöbələrinin, eləcə də digər şöbələrin yaradıldığını söyləyib.

Akademik İsa Həbibbəyli müasir elmin çağırışlarına, informasiya cəmiyyətinin tələblərinə, həmçinin son dövrlərdə Akademiyanın fəaliyyət istiqamətlərində baş verən dəyişikliklərə uyğun olaraq AMEA-nın yeni loqotipinin - embleminin hazırlanması zərurətinin meydana çıxdığını bildirib. O, bu məqsədlə AMEA Rəyasət Heyətinin 9 yanvar 2024-cü il tarixli iclasında Akademiyanın loqotipinin - embleminin hazırlanması üçün müsabiqə elan olunması ilə bağlı qərar qəbul edildiyini deyib.

Akademik İsa Həbibbəyli qeyd edib ki, AMEA-nın yeni loqotipi - emblemi müasir dünyanın elmi çağırışları və dövlətçilik ənənələrini, Milli Elmlər Akademiyasının əsas məqsədləri, inkişafı, vəzifələri, hədəfləri ilə bağlı simvol və təsvirlərin elementlərini əks etdirməli və yaradıcı təfəkkürün məhsulu olmalıdır.

Daha sonra müsabiqənin şərtləri barədə məlumat verən akademik İsa Həbibbəyli bildirib ki, AMEA-nın yeni loqotipinin - embleminin layihəsi dairəvi formada yağlı boya ilə və ya rəngli qrafika ilə işlənilməlidir. Onun sözlərinə görə, müsabiqədə yalnız Akademiyada çalışıb, təsviri sənətlə məşğul olan və digər əməkdaşlar iştirak edə bilərlər.

Akademiyada təsviri sənətlə bağlı 20-dən çox sərginin təşkil olunduğunu deyən AMEA rəhbəri yeni loqotipin - emblemin hazırlanması üçün elan olunmuş müsabiqənin də Akademiyada təsviri sənətlə məşğul olan əməkdaşların fəaliyyətinin stimullaşdırılmasına şərait yaradacağını bildirib.

O, əməkdaşlar tərəfindən təqdim olunacaq AMEA-nın emblemi layihələrinin Müsabiqə Komissiyası tərəfindən qiymətləndiriləcəyini, qalib işin müəllifinin pul mükafatı ilə təltif ediləcəyini və ona müvafiq sertifikatın veriləcəyini qeyd edib.

Müzakirələrdə AMEA-nın vitse-prezidenti v.i.e. akademik Gövhər Baxşəliyeva, AMEA Şərqşünaslıq İnstitutunun böyük elmi işçisi Zülfiyyə Vəliyeva-Önlən, həmin institutun İran filologiyası şöbəsinin elmi işçisi Fidan Nəsirova, "Zirvə" Ziyalılar Təşkilatının rəhbəri, AMEA-nın baş rəssam konstruktor - dizayneri Minayə Dəyanət Feyzullayeva, Memarlıq və İncəsənət İnstitutunun böyük elmi işçisi sənətşünaslıq üzrə fəlsəfə doktoru Afaq Hüseynova, həmin institutun aparıcı elmi işçisi memarlıq üzrə fəlsəfə doktoru, dosent Rizvan Babaşov və kiçik elmi işçi Oksana Məmmədova, eləcə də AMEA-nın Tarix və Etnologiya İnstitutunun əməkdaşı Cəmaləddin İsmayılov çıxış edərək Akademiyanın yeni loqotipinin - embleminin hazırlanması istiqamətində təklif və tövsiyələrini səsləndiriblər.

## Akademiyada yeniləşmə hərəkatı genişlənir



**Fevralın 5-də AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Akademiyanın institutlarının elmi işlər üzrə direktor müavinləri və bir sıra şöbə müdirləri ilə görüşüb.**

AMEA rəhbəri "Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 3 noyabr 2023-cü il tarixli Fərmanından irəli gələrək Akademiyanın yenilənməsi istiqamətində görülən işlərdən, müasir çağırışlara uyğun olaraq AMEA-nın bir sıra elmi müəssisələrində aparılmış islahatlardan danışıb.

Akademik İsa Həbibbəyli bu məqsədlə AMEA-nın nizamnaməsinə uyğun olaraq institut və təşkilatların icraçı direktorlarının elmi işlər üzrə direktor müavinləri vəzifəsi ilə əvəzlənməsi, eləcə də şöbə müdirlərinin yenidən seçilməsi zərurətinin yarandığını vurğulayıb.

O, həmçinin AMEA Rəyasət Heyətinin qərarı ilə Akademiyanın elmi müəssisələri arasında qarşılıqlı əlaqələrin yaradılması, elmi-tədqiqat işlərinin aparılması üçün səmərəli mexanizmlərin işlənib hazırlanması, elmi müəssisələrin iş təcrübəsinin ümumiləşdirilməsi, onların inzibati-idarəetmə heyətinin peşəkarlığının yüksəldilməsi məqsədilə Direktorlar Şurasının yaradıldığını diqqətə çatdırıb. Akademik İsa Həbibbəyli Direktorlar Şurasının bir iclasının elmi müəssisələrin şöbə müdirləri və kadrlarla bağlı məsələyə həsr olunacağını qeyd edib.

AMEA prezidenti Akademiyanın institut və təşkilatlarında elmi, təşkilati, eləcə də əmək intizamına riayət edilməsi ilə bağlı işlərin icrasında şöbə müdirlərinin üzərinə mühüm vəzifələrin düşdüyünü deyib. O, elmi müəssisələrdə rəqabətə davamlı mühitin yaradılması, gənclərin elmə cəlb olunması və yeni elmi nəslin formalaşdırılması üçün şöbə müdirləri və digər məsul şəxslərin fəaliyyətində səmərəliliyin artırılmasının vacib amillərdən olduğunu söyləyib. O, Akademiyanı inkişaf etdirmək üçün bu prosesə ilk növbədə, şöbə müdirlərinin dəstək göstərməsinin vacib olduğunu qeyd edib. Akademik İsa Həbibbəyli qeyd edib ki, bu baxımdan şöbə müdirləri əməkdaşlara nümunə olmalı, tematik tapşırıqlara ciddi riayət etməlidirlər.

Akademik İsa Həbibbəyli çıxışının sonunda AMEA-nın tarixi ənənələrini qoruyub gücləndirməklə ölkə başçısının tələblərini və müasir dövrün çağırışlarını əsas götürərək yeniləşən Akademiya uğrunda islahatların bundan sonra da davam etdiriləcəyini bildirib.

Tədbirdə Fəlsəfə və Sosiologiya İnstitutunun direktor müavini tarix elmləri doktoru Eynulla Mədətli çıxış edərək mülahizələrini bildirib.

Sonda AMEA rəhbəri elmi müəssisələrin rəhbərləri, elmi işlər üzrə direktor müavinləri və şöbə müdirləri qarşısında müvafiq vəzifələr qoyub, tapşırıqlarını verib.

## "Qadınlar və qızlar elmdə" Beynəlxalq Günü münasibətilə

**BMT Baş Assambleyasının 2015-ci il dekabrın 22-də qəbul etdiyi qətnaməyə əsasən fevralın 11-i "Qadınlar və qızlar elmdə" Beynəlxalq Günü elan edilib. Bu günün qeyd olunmasında məqsəd qadınların və qızların elm və texnologiyadakı rolunun vacibliyini göstərməkdir.**




Bu əlamətdar gün hər il bir mövzuya həsr olunur. "Qadınlar və qızlar elmdə" Beynəlxalq Günü UNESCO və BMT tərəfindən qadın və qızları elmə təşviq etmək məqsədi daşıyan institutlar və vətəndaş cəmiyyəti tərəfdaşları tərəfindən həyata keçirilir. Bu gün qadın və qızların elmdə iştirakını təşviq etmək üçün bir fürsətdir.

BMT-nin Baş katibi Antonio Quterreş bu əlamətdar gün münasibətilə dünya ictimaiyyətinə müraciət ünvanlayıb. Müraciətdə qeyd olunur ki, elmdə daha çox qadın və qızın olması elmin daha çox inkişafı deməkdir. Qadınlar və qızlar tədqiqatlara müxtəliflik gətirir, elm sahəsində mütəxəssis toplusunu genişləndirir. Onlar elm və texnologiyaya yeni perspektivlər təqdim edərək hamıya fayda gətirir. Dünyanın bir çox yerində qadınların və qızların təhsilə çıxışı məhdududdur, yaxud onların qarşısı tamamilə alınır.

Müraciətdə vurğulanıb ki, qadınlar elm, texnologiya, mühəndislik və riyaziyyat üzrə işçi qüvvəsinin üçdəbirini təşkil edir, qabaqcıl sahələrdə isə daha azdır. Süni intellekt üzərində çalışan hər beş mütəxəssisdən yalnız biri qadındır.

"Qadınlar və qızlar elmdə" Beynəlxalq Gününün məqsədi 2030-cu ilədək heç bir qadını elmdən kənar saxlamamaqdır.

Bu gün Azərbaycanda savadlılıq səviyyəsi çox yüksəkdir. Burada qadınlarımızın və qızlarımızın payına düşən rəqəmlər də ürəkaçandır.

Ölkəmizdə təhsilin inkişafına, onun müasir tələblərə cavab verməsinə dövlətimiz tərəfindən xüsusi diqqət göstərilir. Hər kəsin bundan bərabər şəkildə faydalanması və ölkəmizə layiqli bir vətəndaş kimi yetişməsi üçün imkanlar yaradılır. Qadınların təhsilli olması erkən yaşda nikahların, azyaşlı uşaq ölümünün azalması deməkdir. Son illərdə ali təhsilə müraciət edən qızların sayı oğlanların sayını üstələməyə başlayıb. Artıq Azərbaycan qadını idarəedici və qərarqəbuledici instansiyalarda da təmsil olunur.

# Ömrünü "yaşıl dünya"nın sirlərinə həsr etmişdi

**Böyük alim və ictimai-siyasi xadim, akademik Cəlal Əliyevin haqq dünyasına qovuşmağından səkkiz il ötür. Azərbaycan və dünya elminin tarixində özünəməxsus iz qoyub getmiş, bütün həyatı alimlik, müəllimlik və insanlıq nümunəsi olan bu fenomenal şəxsiyyətin itkisi, bu itkidən yaranmış boşluq hər gün hiss olunur.**

Sanki Tanrı akademik Cəlal Əliyevin üzərinə bir alim və vətəndaş kimi elmin təmizliyi və elmi həqiqətin təntənəsi naminə haqq carçısı olmaq, özündən sonra yaşamını və parlaq əməllərini davam etdirəcək böyük bir elmi məktəb yaratmaq, Azərbaycan elmini, Azərbaycan idrakını, xalqımızın zəkasını bütün dünyada tanıtmaq, müstəqilliyimizin və dövlətçiliyimizin möhkəmlənməsinə xidmət göstərmək missiyası qoymuşdu.

Bu gün Azərbaycan dövləti tarixinin ən möhtəşəm dövrünü yaşayır. Azərbaycanı yüksək inkişaf etmiş ölkələrin sırasına daşıyacaq yeni mərhələ hər bir vətəndaşa dünya miqyasında rifah və təhlükəsizlik standartları, davamlı sülh və əmin-amanlıq vəd edir. Şəksiz bir həqiqətdir ki, bu uğurların əsasında Ulu Öndər Heydər Əliyev tərəfindən irəli sürülmüş və reallaşdırılmış milli qurtuluş konsepsiyası dayanır. Ümummilli Liderin 1980-1990-cı illərdə Azərbaycan uğrunda apardığı mücadilənin ön sıralarında yer almış şəxslərdən biri olmuş akademik Cəlal Əliyevin müasir Azərbaycan elminin inkişafında xidmətləri danılmazdır. Elmdə və elmə münasibətdə daim həqiqət axtaran Cəlal Əliyev bu yolda bəzən siyasi və mənəvi təzyiqlərlə üzləşmiş, lakin şəxsi iradəsi və cəsarəti, daim haqqa, ədalətə tapınması sayəsində bütün çətinlik və bəlalardan üzüağ çıxmağa müvəffəq olmuşdur.

Bu gün Azərbaycan elm və təhsildə, yüksək texnologiyalara, süni intellektə və rəqəmsal idarəetməyə əsaslanan cəmiyyət quruculuğunda böyük uğurlara doğru iri addımlarla irəliləməkdədir. Bu sahədə, xüsusən biologiya elminin dünya reytinqlərində ön sıralara yüksəlişində, ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsində, biomüxtəlifliyin qorunmasında Cəlal Əliyevin dühasının, yaratdığı və xeyirdua verdiyi böyük elmi məktəbin öz çəkisi, öz yeri, öz rolu vardır.

Bu böyük şəxsiyyətin elmi uzaqgörənliyi sayəsində Azərbaycanda biologiya elminin ən müasir istiqamətlərinin, o cümlədən fiziki-kimyəvi biologiyanı inkişaf etdirməklə molekulyar biologiya, molekulyar genetika, gen və hüceyrə biotexnologiyaları, riyazi biologiya, bioinformatika, kompüter biologiyası və s. kimi mühüm elm sahələrinin təşəkkülü və inkişafı yüksək şəkildə təmin edilmişdir. Xüsusi qeyd olunmalıdır ki, biologiyada inteqrativ, multidissiplinar yanaşmaların dünyada ilk təşəbbüskarlarından və təşkilatçılarından biri, bəlkə də birincisi məhz Cəlal Əliyev olmuşdur.

Keyfiyyətli insan kapitalının cəlb edilməsi ilə elmin inkişafı üçün atılması vacib olan addımlardan danışarkən, bu sahədə Azərbaycanda mövcud olmuş, unikallığı ilə seçilən təcrübəni xatırlatmaq lazımdır.

Heydər Əliyevin elmin ən müasir və perspektiv sahələrində yüksəkixtisaslı alim kadrların hazırlığı ilə bağlı məqsədyönlü siyasətinin həyata keçirilməsində akademik Cəlal Əliyev tərəfindən görülmüş işlər olduqca böyük dəyərə malikdir. Bu böyük elm ağsaqqalı və müəllim perspektivli, istedadlı gəncləri ətrafına toplayır, elmə fanatikcəsinə vurğunları həmişə qiymətləndirir, çətin anlarda onlara dayaq olaraq inamla irəli getmələri üçün zəmin yaradırdı. Onun ustad himayəsi, müəllim qayğısı və şəxsi təşəbbüsü ilə 300-ə yaxın gənc dissertasiya müdafiə edərək alim adı qazanmışdır. Cəlal müəllim onlardan 80-dən çoxunun namizədlik dissertasiyasının bilavasitə elmi rəhbəri, 12-nin doktorluq dissertasiyasının elmi məsləhətçisi olmuşdur. Böyük alimin gərgin zəhməti sayəsində Azərbaycanda müxtəlif elm sahələri (kimya, fizika, riyaziyyat və s.) üzrə savadlı mütəxəssislərin biologiya və aqrar elmlərin ən müasir istiqamətləri üzrə tədqiqatlara cəlb olunması, kadrların hazırlanmasında keçmiş ittifaqın və uzaq xaricin tanınmış elm və təhsil mərkəzlərindən, görkəmli alimlərin elmi rəhbər kimi cəlb edilməsi təcrübəsindən istifadə edilməsi öz bəhrəsini vermişdir.

Hər hansı bir sahənin inkişafında başlıca nailiyyətlərin yalnız keyfiyyətli insan kapitalının düzgün seçilməsi və inkişafı ilə əldə edilə biləcəyini dahiyanə surətdə dərk edən akademik Cəlal Əliyevin yaratdığı və Azərbaycanda



biologiya elminin əsas potensial qüvvəsini təşkil edən elmi məktəbinin nümayəndələri bu gün ABŞ, Kanada, İsveç, Böyük Britaniya, Yaponiya, Cənubi Koreya, Avstraliya, Rusiya və onlarla digər qabaqcıl ölkənin tanınmış universitetlərində, elmi-tədqiqat müəssisələrində, beynəlxalq mərkəzlərdə çalışmaqla elmə ləyaqətlə xidmət edir, vətənimizə dünya səviyyəsində nüfuz qazandırırlar. Azərbaycanda biologiya elminin gələcək inkişafı çox cəhətdən bu adamlardan, onların Cəlal Əliyev yolunu davam etdirmək cəhdləri və bacarıqlarından, elmi və təşkilati cəhətdən məqsədyönlü yüksəlişlərindən, həmrəyliyindən və Azərbaycan elminin dünya elminə inteqrasiyasına göstərdikləri dəstəyin səviyyəsindən asılı olacaqdır.

Azərbaycan elmi tarixində ilk dəfə olaraq apardığı tədqiqatların əhəmiyyətli bir hissəsini yer üzərində həyatın əsasını təşkil edən, işığın enerjisini həyatın davamına yönəldən fotosintez prosesinin sirlərinin, nəzəri əsaslarının öyrənilməsinə həsr edərək özünün orijinal, fundamental tədqiqatları ilə bütün dünyada qəbul edilən ən mühüm elmi nailiyyətlərə imza atmış Cəlal Əliyev, əslində, ilahi nurun daşıyıcısı, işləri, əməlləri, yazıları, çıxışları, hər bir sözü isə bu nurun qaranlığı, nadanlığı, məchulluğu parçalayıb dağıdan şüaları olmuşdur.

Akademik Cəlal Əliyev fotosintez prosesinin müxtəlif tədqiqat istiqamətlərinin inteqrasiyası hesabına "yaxşı" fotosintez haqqında təsəvvür yaratmış, kənd təsərrüfatı bitkilərindən yüksək və keyfiyyətli məhsul əldə edilməsi üçün prosesin optimallaşdırılması məsələlərini araşdırmışdır. O, dünya elmində bitkilərdə fototənəffüsün israfçılıq olması və məhsuldarlığı artırmaq üçün bu prosesi azaltmaq zərurəti ilə bağlı uzun illər mövcud olan təsəvvürlərin əksinə olaraq, tarla şəraitində yetişdirilən kontrast buğda və soya genotipləri ilə aparılan 40 illik təcrübələrlə sübut etmişdir ki, fototənəffüs təkamülün gedişində formalaşmış həyati əhəmiyyətli metabolik proseslərdən biridir və bitkilərin məhsuldarlığını artırmaq məqsədilə müxtəlif yollarla fototənəffüsü azaltmaq cəhdləri əsassızdır. Əminliklə demək olar ki, fototənəffüs prosesi ilə bağlı əldə etdiyi bu qlobal nəticə dünya elminin tarixinə qızıl hərflərlə yazılmışdır.

Qeyd edək ki, fotosintez elminə verdiyi dəyərli töhfələr böyük alimə dünya şöhrəti qazandırmışdır. Beynəlxalq Fotosintez Cəmiyyətinin (ISPR) akademik Cəlal Əliyevin adına mükafat ("The Jalal Aliyev Lecture Award") və medal təsis etməsi bunun əyani sübutu olmaqla Azərbaycan elm tarixi üçün çox önəmli bir hadisə, xalqımız üçün qürurverici bir faktdır.

Akademik Cəlal Əliyevin bütün elmi fəaliyyəti Ulu Öndər Heydər Əliyevin "Hər bir alim qiymətlidir. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, nəzəri fikirlərini tətbiq edə bilən və onlardan əməli nəticə gətirə bilən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən insanlar alimlərin sırasında xüsusi yer tutur" kimi dahiyanə fikirlərinə əsas verir. Azərbaycanda kənd təsərrüfatı biologiyası və bitkilərin seleksiyası sahəsində yeni elmi nəzəriyyənin formalaşdırılması akademik Cəlal Əliyevin mühüm xidmətlərindəndir və o, ilk dəfə təcrübi yolla yeni intensiv tipli sortların yaradılmasına və tətbiqinə imkan verən fundamental elmlə sahə tədqiqatlarının yeni formada vəhdətini, inteqrasiyasını yaratmışdır.

Alimin fundamental tədqiqatlarının nəticələri praktikada tətbiqini tapmaqla Azərbaycanda taxılçılığın inkişafına və ərzaq təhlükəsizliyinin təmin edilməsinə dəyərli töhfələr vermişdir. Fotosintez əlamətlərinin irsən keçməsinin, ümumiyyətlə, irsiyyətin öyrənilməsi, genotiplərin donor xüsusiyyətlərinin aşkar olunması və ən başlıcası "ideal" tipə yaxın sortların yaradılması üzrə məqsədyönlü seleksiya işlərinin seleksiyaçılarla genetiklərin, fizioloqların, kimyaçıların, fitopatoloqların, entomoloqların birgə fəaliyyəti çərçivəsində kompleks şəkildə həyata keçirilməsi onun adı ilə sıx bağlıdır.

Cəlal müəllimin ideal buğda konsepsiyasına uyğun olaraq, Azərbaycanın mürəkkəb torpaq-iqlim şəraitinə malik müxtəlif bölgələrinə uyğun yaratdığı sortlar yüksək məhsuldar, quraqlığa, aşağı və yuxarı temperatura, xəstəlik və zərərvericilərə davamlı, şoran torpaqlarda da nisbətən yüksək məhsul vermək qabiliyyətinə malik olmaqla ölkəmizin hüdudlarından çox-çox uzaqlarda şöhrət qazanmış, beynəlxalq təşkilatlar tərəfindən də dəfələrlə təqdir edilmişdir. Bu bir danılmaz həqiqətdir ki, son 50 il ərzində Cəlal Əliyevin yaratdığı buğda sortlarının unundan bişirilmiş çörəyin ətri Azərbaycanda, demək olar ki, hər ailəyə, hər evə daxil olaraq bərəkət və əmin-amanlıq simvoluna çevrilmişdir. Təsadüfi deyil ki, bu gün ölkədə ərzaqlıq buğda istehsalı ilə bağlı qarşıya qoyulan vəzifələrin icrasında akademik Cəlal Əliyev və davamçıları tərəfindən yaradılmış sortlar həlledici rol oynayır.

Akademik Cəlal Əliyevin respublikada biomüxtəlifliyin qorunub saxlanması və səmərəli istifadəsi sahəsində də xidmətləri böyük olmuşdur. Azərbaycanda "yaşıl inqilab"ın atası hesab edilən böyük alim biomüxtəlifliyə həm canlı həyatın davamı üçün yeganə vasitə, həm də seleksiya proqramlarında səmərəli istifadə üçün tükənməz gün mənbəyi kimi baxırdı.

Böyük alimin Azərbaycanın biomüxtəlifliyi sahəsində istiqamətverici fəaliyyəti, rəhbərliyi altında həyata keçirilmiş layihələr, vaxtilə yazı və çıxışlarında verdiyi tövsiyələr "Yaşıl dünya naminə həmrəylik ili"ndə xüsusilə aktuallıq kəsb edir. Azərbaycan təbiətinin, nadir və itməkdə olan növlərin bərpası və mühafizəsi, milli bitki və heyvan genefondunun qorunub saxlanması sahəsində son illərdə əldə edilmiş nailiyyətlərdə onun və tələbələrinin xidmətləri əvəzsizdir. Akademik Cəlal Əliyev 2013-cü ildə çap edilmiş Azərbaycan Respublikasının "Qırmızı kitab"ının II nəşrinin redaksiya heyətinə rəhbərlik etmiş, "Qırmızı kitab"ın 2023-cü ildə işıq üzü görmüş və Ulu Öndərin 100 illik yubileyinə həsr olunmuş III nəşrinin hazırlanmasında isə onun davamçıları və elmi məktəbinin nümayəndələri həlledici rol oynamışlar.

2023-cü ildə Azərbaycanın elmi ictimaiyyəti və böyük alimin tələbələri tərəfindən akademik Cəlal Əliyevin anadan olmasının 95 illiyi qeyd edilmişdir. Hər zaman olduğu və özünün də vəsiyyət etdiyi kimi, yubiley tədbirləri elmi xarakter daşımışdır. 16 noyabr 2023-cü il tarixdə AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsi və AR ETN Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun təşkilatçılığı ilə "Fotosintez, ətraf mühit və bitkilərin məhsuldarlığı" mövzusunda "Akademik Cəlal Əliyev qiraətləri" keçirilmişdir. Beynəlxalq iştirakla təşkil edilən bu mühüm elmi tədbirdə plenar məruzəçi fotosintez sahəsində dünyaşöhrətli alim, Beynəlxalq İpək Yolu Elmlər Akademiyasının Start Komitəsinin üzvü, Macarıstanın Elmlər Akademiyasının Bioloji Tədqiqat Mərkəzinin professoru, Çexiya Respublikasının Ostrava Universitetinin dəvətli professoru, Biofotonika R&D Ltd.-nin baş direktoru Gyozo Qarab olmuşdur.

Akademik Cəlal Əliyevin ideya və nəzəriyyələri, Azərbaycan və dünya elminə gətirdiyi yeniliklər, mühüm elmi nailiyyətləri, onların əks olunduğu 800-ə qədər elmi əsər, o cümlədən 25 fundamental monoqrafiya və kitab, 20 müəlliflik şəhadətnaməsi, yadigarı olan Elm və Təhsil Nazirliyinin Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu, yaratdığı bitki sortları, daim təkamüldə olan elmi məktəbi Azərbaycan xalqının milli sərvətləridir. Əminliklə demək olar ki, bu sərvət nəinki heç vaxt tükənməyəcək, əksinə, zaman keçdikcə artacaq, genişlənəcək və bununla böyük alim, ictimai-siyasi xadim və müəllimin əziz xatirəsini əbədi yaşadacaqdır.

**İradə HÜSEYNOVA**
**AMEA-nın vitse-prezidenti, AR ETN Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun baş direktoru, akademik**
*"Azərbaycan" qəzeti*

# Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun Elmi şurasının iclası

**AR ETN Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun Elmi şurasının iclası keçirilib. Əvvəlcə Elmi şuranın üzvü, Proteomiks beynəlxalq laboratoriyasının müdiri biologiya üzrə fəlsəfə doktoru İsmayıl Zülfüqarovun xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**



Sonra institutun baş direktoru akademik İradə Hüseynova şura üzvlərini gündəlikdə duran məsələlərlə tanış edib. İclasda institutda 2024-cü ildə yerinə yetiriləcək elmi-tədqiqat işləri və elmi tədbirlər planı müzakirə edilərək təsdiqlənib.

İş planına daxil edilən məsələlərlə bağlı təkliflər dinlənilib.

İngilis dilində nəşr edilən "Transactions of the Institute of Molecular Biology & Biotechnologies" jurnalının elektron versiyasının beynəlxalq bazalara daxil edilməsi və təbliği istiqamətində işlərin davam etdirilməsi və 2024-cü ildə jurnalın 8-ci cildinin I nömrəsinə məqalə qəbulunun başlanması haqqında məlumat verilib. B.ü.f.d. Ülkər İbrahimovanın müəllifliyi ilə "Buğdada duz stresi ilə induksiya olunan morfoloji, fizioloji və biokimyəvi dəyişikliklər" adlı monoqrafiyanın dərc olunmasının məqsədəuyğunluğu barədə məsələ müzakirə olunub.

İclasda, həmçinin Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 2023-cü il tarixli Sərəncamından irəli gələn məsələlər, Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi Çərçivə Konvensiyası (COP 29) ilə bağlı həyata keçiriləcək tədbirlər müzakirə olunub.

# MBBİ-nin əməkdaşı 2024-cü il Gənclər üçün Prezident mükafatına layiq görülüb

**Prezident İlham Əliyevin Sərəncamı ilə Elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən gənclər Prezident mükafatları ilə təltif olunublar.**



Elm sahəsi üzrə bu mükafata AR ETN Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun (MBBİ) kiçik elmi işçisi Gülnar Abdullayeva layiq görülüb.

2018-ci ildə MBBİ-də "Molekulyar Biologiya" ixtisası üzrə magistratura təhsilini başa vuran Gülnar Abdullayeva İslam İnkişaf Bankının PhD təqaüd proqramının qalibi olub. Hazırda Gülnar Abdullayeva Birləşmiş Krallığın Oksford Universitetində tədqiqatlarını tamamlayıb və dissertasiya işini müdafiəyə təqdim etmək ərəfəsindədir.

Qeyd edək ki, AR ETN Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun artıq 3-cü əməkdaşı bu böyük mükafata layiq görülüb.

# AMEA - Azərbaycanın elmi yaddaş və intellektual məkanı

Azərbaycan Milli Elmlər Akademiyası xalqın ümumi zəkasını, ağlını birləşdirən böyük bir sərvətdir. ...Elmlər Akademiyasının yaranması Azərbaycanın çoxəsrlik tarixində mühüm bir hadisədir.

Heydər ƏLİYEV,
Ümummilli Lider

*(əvvəli qəzetimizin ötən nömrəsində)*

**II məqalə**

**AMEA elmi yaddaşın milli sərvətə çevrilməsi yolunda**

Biz, I məqalənin sonlarında qeyd etmişdik ki, AMEA müstəqil dövlətin inkişafı üçün çox böyük işlər görə bilər və elmi müasirləşmə hər kəsdən öncə bu strukturun çiyinləri üzərində mümkündür.

Bəli, hazırda AMEA-nın rəhbərliyi prosesləri məhz bu istiqamətdə aparır. Bu qurumun rəhbəri akademik İsa Həbibbəyli bütün intellektual potensialı, praktiki fəaliyyət imkanları ilə AMEA-nın Azərbaycan müstəqil dövlətçiliyinin inkişafı naminə intensiv çalışması xəttini həyata keçirir. Bu, pafoslu ritorika deyildir - hazırda AMEA-da gedən proseslərin təhlilindən yaranmış fəlsəfi-sinergetik qənaətdir.

Həmin tezisin doğruluğunu sübut etmək üçün kifayət qədər faktlarımız vardır. Akademik İsa Həbibbəyli məsələyə sırf müstəqil dövlətçiliyi, Ulu Öndərin dövlət quruculuğu konsepsiyası və onun siyasi varislik prinsipi üzrə Prezident İlham Əliyevin böyük uğurla inkişaf etdirilməsi kontekstində yanaşdığından, irəli sürülən hər bir fikrin də fəlsəfi-elmi sübutu olmalıdır.

Burada qeyri-elmi və ya dayaz yanaşma keçərli deyil. Digər tərəfdən, nəzərə almaq gərəkdir ki, AMEA rəhbərliyi dövlətçilik baxımından çox ciddi məsələlərlə məşğuldur və onların fəlsəfi-elmi (o cümlədən, sinergetik) dərki vacibdir! AMEA perspektivli olduğu qədər də ciddi təşkilatdır! Həm də ona görə ki, Ulu Öndərin müəyyən etdiyi kimi, AMEA Azərbaycanda "elmi varisliyin" daşıyıcısı olmalıdır. "Elmi varislik" anlayışı Prezidentin tam əməl etdiyi siyasi varisliyin tərkib hissəsidir. Elmi varisliyin başlıca prinsiplərini Prezident İlham Əliyev müəyyən edir və onun icrası baş təşkilat kimi AMEA-nın üzərinə düşür! Bu, şərəfli olduğu qədər, həm də məsuliyyətli bir işdir!

Burada təhlillər AMEA-nın elmi-mədəni yaddaş fenomeni kimi yaradıcı aspektdə milli sərvətə çevrilməsinə prosessual, yəni daim özünüyeniləşdirən strukturun dərki fonunda aparılır. Eyni zamanda obrazlı desək, AMEA intellektual potensialın elm naminə əyaniləşən, aktuallaşan və reaktuallaşan (təkrar-təkrar elmi tədqiqatlarda əyaniləşən, predmetləşən) məkanıdır. Bu anlamda təşkilat Azərbaycan Respublikasının elmi gerçəkliklərinin mərkəzi, avanqardı və həm də intellektual məsuliyyətini dərindən dərk edən strateji strukturlarından biridir!

Düşünürük ki, məhz bu anlamlar kontekstində AMEA Azərbaycanın elmi yaddaşı olmaqla intellektual məkanı kimi mövcudluğunun sintezini özündə ehtiva edən yeganə təşkilatdır! Sonuncu tezisə Ulu öndər Heydər Əliyevin yuxarıda deviz kimi verdiyimiz dahiyanə fikrinin işığında baxmaq istərdik. Çünki o halda AMEA-nın indiki rəhbərliyinin elmimizin dövlətçilik naminə milli sərvətə çevrilməsi yolunda sərf etdiyi böyük zəhməti dərindən duymuş və soyuq məntiqlə də dərk etmiş olarıq!

**Ulu Öndərin tezisinin iki aspekti**

Yuxarıda gətirdiyimiz nümunədə iki fikir aspekti bir-biri ilə vəhdətdə ifadə edilmişdir. Birincisi, "Azərbaycan Milli Elmlər Akademiyası respublikanın dövlət müstəqilliyinə xidmət etməlidir", ikincisi, "Azərbaycan elminin inkişaf etməsində aparıcı rol oynamalıdır"!

Ulu öndərin fundamental əhəmiyyətli tezisinin birinci hissəsi AMEA-nın ümumi strateji missiyasını ifadə edir. Dövlətçilik ənənəsi ilə elmi ənənənin qarşılıqlı əlaqəsinin məzmunundan bu strateji istiqamət müəyyən edilir. Bunun əsası Ulu Öndərin bütövlükdə elm və mədəniyyətin tarixən Azərbaycan cəmiyyəti



və dövlətlərinin həyatında oynadığı roldadır.

Heydər Əliyevin çox sayda fikirlərində ana xətt kimi belə bir məna keçir: Azərbaycan xalqı kökdən zəkidir, ziyalıdır və fəaliyyətinin kollektiv formasında, o cümlədən, dövlət quruculuğunda daima elmə, mədəniyyətə, təhsilə, azərbaycanlı ziyalılığının aydınlığına və fəzilətinə əsaslanmışdır. Elmə verilən bu qiymət dövlətçilik baxımından çox vacib bir özəlliyi aydınlaşdırır: Azərbaycanda dövlətçiliyin təməlində mədəniyyət, mənəvi-əxlaqi dəyərlər və ziyalılığın fəziləti dayanır! Bu, bütövlükdə, Azərbaycan dövlətçilik fəlsəfəsinə şər-böhtan atmağa cəhd edənlərə ən tutarlı cavabdır. Eyni zamanda, əhəmiyyətli məqamdır ki, Ulu Öndər dövlətçilik kontekstində cəmiyyətin elmi vəziyyətinin formalaşmasında AMEA-nı başda görmüşdür. Məhz bu anlamda alimləri çox şərəfli bir xidmətə - Azərbaycanın dövlət müstəqilliyinə xidmət etməyə dəvət etmişdir və Prezident kimi tapşırıq vermişdir, qarşıya müqəddəs vəzifə olaraq qoymuşdur!

Tezisin ikinci hissəsi bu vəzifənin işığında olduqca aktual görünür. Ulu öndər AMEA üzərinə belə bir məsuliyyət qoymuşdur: AMEA Azərbaycan elminin inkişaf etməsində aparıcı rol oynamalıdır! Bu isə akademiya daxilində düzgün elm siyasəti yeritməyi özündə ehtiva edir. "Elm siyasəti" dedikdə elmi tədqiqatlarda yaradıcılığı, innovativliyi, elmi fəaliyyətin təşkilinin optimallaşdırılmasını təmin etmək (qabaqcıl təcrübələri öyrənmək kontekstində), AMEA-nın struktur-funksional mövcudluğunda islahatların aparılmasına və araşdırmalarda alınan nəticələrin çevik olaraq praktiki tətbiqinə nail olmaq nəzərdə tutulur (bizim anlamımızda). Təbii ki, həmin prosesin uğurlu olması üçün həm yüksək elmi yaradıcılıq mühitini yaratmaq, həm də təşkilatın struktur və funksional imkanlarını daim inkişaf etdirmək gərəkdir.

Bizcə, məhz bu şərtlər daxilində Ulu Öndərin müəyyən etdiyi anlamda AMEA Azərbaycanın milli sərvəti kimi elm-mədəniyyət yaddaşı və intellektual məkan olaraq tarixi yerini tuta bilər! Hazırda AMEA-nın rəhbərliyi bütün imkanları bu istiqamətə yönəltmişdir. Bu prosesin məzmununu və məqsədini ifadə edən bir neçə faktor mövcuddur. Onların üzərində geniş dayanaq!

**Öncə dövlət müstəqilliyinə xidmət!**

AMEA-nın indiki prezidentinin bütün çıxışlarında ifadə etdiyi ilk və ana tezis bundan ibarətdir. Akademik İsa Həbibbəyli öz elmi yaradıcı və təşkilati fəaliyyəti ilə bunun nümunəsini də göstərir. AMEA prezidentinin ictimai-humanitar elmlərin hər bir sahəsində aktual hesab etdiyi hər mövzu birbaşa müstəqil dövlətçiliklə əlaqəlidir.

Məsələn, Tarix İnstitutunda Azərbaycan dövlətçiliyinin keçmişi, bu günü və gələcəyi müstəqil dövlətçilik konseptinin Heydər Əliyev tərəfindən müəyyən edilmiş məna, məzmunu və strategiyası kontekstində araşdırılır.

Folklor İnstitutu aktiv şəkildə Azərbaycan folklorunun Ulu Öndərin müəyyən etdiyi aspektlər üzrə müstəqil vətəndaş cəmiyyətinin formalaşmasında və dövlət quruculuğunda yeri və rolunu araşdırır. Bu zaman folklorun ictimai faktor kimi multikultural cəmiyyətdə birləşdirici rolu önə çəkilir.

Fəlsəfə və Sosiologiya İnstitutunda daha çox aktuallıq kəsb edən mövzular dövlətçiliyin tarixi, siyasi, fəlsəfi və ideoloji aspektlərinin Ulu Öndərin müəyyən etdiyi müstəqillik fəlsəfəsi çərçivəsində müzakirə olunur. Bu zaman, AMEA prezidenti və institut rəhbərliyi Ulu Öndərin "Bir millət, iki dövlət" kəlamı və azərbaycançılıq ideologiyası kontekstində araşdırmaların aparılmasına önəm verirlər. Həmin prizmada da Prezident İlham Əliyevin fəaliyyətinin müxtəlif aspektləri fəlsəfi və siyasi-nəzəri refleksiya edilir. Bu sırada AMEA-nın rəhbəri Prezident İlham Əliyevin daxili və xarici siyasətinin vəhdətdə tədqiq edilməsinə xüsusi önəm verir.

Burada akademik İsa Həbibbəyli "Bir millət, iki dövlət" kəlamı və azərbaycançılıq ideologiyasının qarşılıqlı əlaqəsi aspektində Prezidentin həyata keçirdiyi genişmiqyaslı proqramların tədqiq edilməsinə ayrıca diqqət göstərir və lazımi istiqamətləri müəyyənləşdirir.

Bunlarla yanaşı, AMEA-da Azərbaycan Prezidentinin "intellektin milli sərvətə çevrilməsi" tezisinin fəlsəfi-tarixi, etik, estetik, sosioloji, psixoloji, siyasi-nəzəri araşdırılması getdikcə daha geniş və dərin istiqamətlərdə həyata keçirilir.

Vurğulanan ruhda və istiqamətdə AMEA-nın digər tədqiqat institutlarının da fəaliyyətindən bəhs etmək olar. Bu mühiti yaradan və istiqamətləndirən birbaşa AMEA rəhbərliyidir!

AMEA rəhbərliyinin fəaliyyətinin digər tərəfi birbaşa ölkədə elmin inkişafında aparıcı rol oynamaqla bağlıdır. Burada da maraqlı və əhəmiyyətli saydığımız bir sıra məqamların üzərində geniş dayanmağa ehtiyac duyuruq.

**Elmdaxili potensial və xarici əlaqə sintezində**

Öncə, onu vurğulayaq ki, bu məsələ heç də sadə və asan başa gələn proses deyildir. Ümumi səviyyədə problemə yanaşanda onun bütövlükdə dünya elmi üçün aktuallıq kəsb etdiyini anlamış oluruq. Bununla bağlı Qərbdə, Rusiyada, Uzaq Şərq ölkələrində kifayət qədər ciddi elmi araşdırmalar mövcuddur. Onlarda ifadə edilən ideyaları elmin inkişafı kontekstində bir neçə qrupda cəmləşdirmək mümkündür. Bu, bizə baxılan problem kontekstində nəyi verəcəkdir?

Hər şeydən öncə, həmin problemlərin dünya üzrə mövcudluğu özəlliyi fonunda Azərbaycanda həyata keçirilən elmi araşdırmaların fəlsəfəsinin uğurlu olub-olmaması haqqında fikir formalaşar.

Bundan əlavə, dünyanın qabaqcıl ölkələrində nəzəri araşdırmalarla praktiki tətbiqin innovativlik kontekstində qarşılıqlı əlaqələri haqqında geniş təsəvvür yaranar.

Nəhayət, bu təsəvvürlər bizə AMEA-nın indiki rəhbərliyinin elmin inkişafında aparıcı rola necə nail olmaq istiqamətində apardığı axtarışların fəlsəfi-sinergetik dərkinə imkan verər.

Ayrıca, biz "sinergetik dərk" məsələsini gəlişi və səslənişi müasir kimi görünən ritorika statusunda işlətmirik. Sinergetik dərk keyfiyyətcə mürəkkəb prosesləri indiki mərhələdə elmi olaraq daha adekvat qavramağın səmərəli epistemoloji (ümumi və sadə halda epistemologiya - dərketmə nəzəriyyəsi, yəni idraketmə nəzəriyyəsi) sistemi kimi faydalıdır.

Təbii ki, məsələnin bu cür qoyuluşu bəri başdan Azərbaycan elminin inkişafında AMEA-nın aparıcı rol oynaması məsələsinin kompleks xarakterli olduğunun təsbitidir. Burada, da istər-istəməz, həm baxılan problemin ciddi elmi xarakterdə olmasını, həm də onun adekvat, çağdaş tələblərə cavab verən səviyyədə araşdırılması üçün fənlərarası (interdisiplinar) yanaşmaya ehtiyacın yaranmasını qəbul etmək lazım gəlir. Bu məqamdan da məsələnin daha aktual və maraqlı mərhələsi başlayır.

**Füzuli QURBANOV**
**AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri, fəlsəfə elmləri doktoru**
*"Xalq qəzeti"*

## Bakıdakı Rus Evinin rəhbəri Şərqşünaslıq İnstitutunda

**Bakıdakı Rus Evinin rəhbəri İrek Zinnurov və əməkdaşı Yelena Svileva AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda olublar.**



Qonaqlar Şərqşünaslıq İnstitutunun direktoru akademik Gövhər Baxşəliyeva ilə görüşüblər.

Akademik G.Baxşəliyeva Şərqşünaslıq İnstitutunda aparılan tədqiqatlar barədə qonaqlara məlumat verib, eləcə də, Şərqşünaslıq İnstitutunun Rusiyanın bir sıra elm və təhsil müəssisələri ilə qarşılıqlı əməkdaşlığından danışıb.

İ.Zinnurov mövcud əməkdaşlığı genişləndirməkdən, Bakıdakı Rus Evinin köməkliyi ilə Rusiyanın digər elm və təhsil müəssisələri ilə də əlaqələr qurmağın perspektivlərindən söz açıb.

Görüşdə mədəniyyətlərarası mübadilə sahəsində əməkdaşlıq, birgə elmi seminarların, konfransların təşkili imkanları müzakirə edilib.

## Seysmoloji Xidmət Mərkəzində mülki müdafiə dəstələri ilə xəbərdarlıq və toplanış üzrə müdafiə məşqi

**AMEA-nın nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzində (RSXM) hərbiləşdirilməmiş mülki müdafiə dəstələri ilə xəbərdarlıq və toplanış üzrə müdafiə məşqi keçirilib.**

Məşqə AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin Mülki müdafiə qərargahı və Mülki müdafiə qüvvələrinin heyəti cəlb olunub.

"Fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılması zamanı Mülki müdafiə qüvvələrinin hazırlığının yoxlanılması" mövzusunda keçirilən tədbirin məqsədi "Mülki müdafiə haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin yerinə yetirilməsi, RSXM-nin Mülki müdafiə sənədlərinin tələbinə uyğunluğunun, rabitə və xəbərdarlıq sisteminin hazırlığının, fövqəladə hadisələr zamanı qarşıda duran vəzifələrin yerinə yetirilməsi üzrə Mülki müdafiə qüvvələrinin hazırlığının yoxlanılması, aşkar olunmuş çatışmazlığının aradan qaldırılmasıdır.

RSXM-nin icraçı direktoru texnika üzrə fəlsəfə doktoru, dosent Rauf Muradov tədbirdə çıxış edərək Azərbaycanda Mülki Müdafiə sahəsində görülən işlərdən danışıb. Rauf Muradov hadisələrdən və təbii fəlakətlərdən heç kimin sığortalanmadığını qeyd edərək, mülki müdafiə tədbirlərinin görülməsinin zəruriliyindən danışıb.

RSXM-nin Mülki Müdafiə Qərargahının rəisi Azad Rzayev tədbir iştirakçılarına məşqin keçirilməsinin əhəmiyyətindən, xəbərdarlıq sisteminin vəziyyətinin yoxlanılmasından, eləcə də məşq zamanı ortaya çıxa biləcək çatışmazlıqların aradan qaldırılması istiqamətində görüləcək işlərdən danışıb.

Daha sonra AMEA Rəyasət Heyətinin Mülki Müdafiə qərargahının rəisi Oqtay Fərzəliyev çıxış edərək təbii və texnogen səbəblərdən baş verən fövqəladə hadisələr və onlarla mübarizə imkanlarından danışıb.

Tədbir iştirakçıları fövqəladə hallar zamanı rəhbər heyətin kollektivlə qarşılıqlı fəaliyyəti barədə də məlumatlandırılıblar. Məşq zamanı mülki müdafiə tədbirlərini özündə əks etdirən plan da dəqiqləşdirilib.

Sonda mövzuya dair təlimat xarakterli videomateriallar nümayiş etdirilib.

# Həyatın təməl meqafazası və ya insan teatrı kainat teatrının bir səhnəsi kimi

**Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə İnstitutunun Estetika şöbəsinin müdiri, fəlsəfə elmləri doktoru, professor, ölkəmizi bir sıra beynəlxalq elmi konqreslərdə təmsil edən, elmin populyarlaşdırılması sahəsində səmərəli fəaliyyətinə görə AMEA Rəyasət Heyəti mükafatının qalibi Adil Əsədov ardıcıl iki fundamental kitabı ilə çağdaş fəlsəfi fikrimizi zənginləşdirmişdir.**







O, elm və fəlsəfənin yaranışından bəri həmişə onların diqqət mərkəzində olan bir problemə - Kainatın mənşəyi məsələsinə müasir astronomiya, astrofizika və fizikanın xüsusi bölümlərinin, başlıca olaraq, ümumi nisbilik nəzəriyyəsi və nəzəri fizikanın ən son elmi nailiyyətləri zəminində dərin konseptual baxışı özündə əks etdirən "Kainat və onun inkişaf mərhələləri" adlı yaradıcı intellektə güclü təkan və impulslar verə biləcək əsərini ərsəyə gətirmişdir. Müəllif "Böyük Partlayış"la ("Big Bang") başlayıb "Həyat"ın (Canlı Aləmin) yaranması çağınadək davam edən təqribən 14 milyard illik mövcudluq dönəmini bir-birindən doğan epoxal mərhələlər olaraq, həm də özünəməxsus elmi-fəlsəfi üslubun cazibədar epik təhkiyəsi ilə izləyir. Filosofun təhlillərindəki "zəncirvari reaksiya" elə "Böyük Partlayış"ın inqilabi dəyişmələrindəki bağlılığı andırır. Bu, həm də o deməkdir ki, fəlsəfi idrakın yaddaşında Kainat təkamülünün izləri saxlanılır... Sivilizasiyanın tərəqqisi də, əslində, o yaddaşın qorunması və keyfiyyətcə təzələnməsi, zənginləşməsi ilə mümkün olur.

Əsər iki böyük hissədən - müəllifin analitik "monoloqundan" və digər mütəxəssislərlə problem üzrə apardığı "dialoqundan" ibarətdir ki, onlardan spontan olaraq bir-birinə sarmaşıb üzə çıxan fikirlər belə bir mürəkkəb problemə aydınlıq gətirmək məqsədi daşıyır. Filosof ən müxtəlif hipotez və nəzəriyyələrin nəticələrini ələyərək, Kainatın yaranması haqqında mövcud elmi-fəlsəfi biliklərdən toplanmış daha mühüm və dürüst saydığı qənaətlərin vahid arsenalını yaratmağa çalışır. Az qala hər gün yeniləşən, bir-birini tamamlayan və tamamlamayan, təsdiq və inkar edən, eksperimental təcrübələrlə daha dəqiq nəticələr əldə etməyə çalışan, bəzən elmdən fəlsəfəyə, fəlsəfədən elmə adlamasında dolaşıb uçuruma, skepsisə yuvarlanan, hətta ən etibarlı imperativlərini belə sorğu-suala tutan nəzəriyyələrin ortaq məxrəcini tapmaq və həmin arsenalı gücləndirərək, onu elmi axtarışların növbəti mərhələsinə yüksəltmək kimi çətin bir missiyanı XXI əsrin fəlsəfəsi öz üzərinə götürür.

Əsər məhz XXI əsr fəlsəfəsinin baxışı olaraq Kainatın varlığına nəzər salır: "Böyük Partlayış"ı - "mahiyyət daşıyıcısının ideyadan gerçəkliyə total transformasiyası" kimi şərh edərək, inkişafının hər mərhələsində Kainatın yetdiyi yeni durumun özəlliyini açır. Bu epoxal təkamül pillələri Kainatı "yetişdirir", onu orqanikasının daha mükəmməl mərhələsinə çatdırır. 13,72 milyardlıq ili qapsayan bu prosesin ən heyrətləndirici məqamı - Kainat həyatının ilk 10-43 saniyəsidir. Məhz həmin başlanğıc anında ("Quantum Fluctuations") sinqulyar nöqtədən Kainatın yaranışına "böyük partlayışla" təkan verilir. Müəllif Kainatın Böyük Partlayışdan sonrakı inkişafının bu birinci mərhələsini, yəni Böyük Partlayış anından 10-43 saniyənin sonuna qədər davam edən Plank Epoxasını lüksonların doğuluşu və məkan kvantlarının mövcudluğu zamanı sayır. "Kainatı törədən iki başlanğıcdan biri olan lüksonlar maskulin başlanğıc statusunda, ikinci başlanğıc olan məkan kvantları isə feminin başlanğıc statusunda çıxış etmişlər" - qənaətinə gəlir.

Qanunauyğundur ki, filosof bu iki (maskulin və feminin) başlanğıcı Kainatın təkamülündəki epoxal dəyişmələrin - lüksonlardan qalaktikalara, məkan kvantlarından qara dəliklərədək - hərəkətverici və sükunətləndirici qütbləri kimi tədqiqatının sonuna qədər izləyir. Qədim Çin fəlsəfəsində kosmogenezi açan "in" və "yan" başlanğıclarının dialektikasını xatırladacaq bu yanaşma Kainatın vəhdətində ilahi bir nizamın - Loqosun olduğuna da xüsusi diqqət yetirir. Kainat "orqanizminin" hər bir hüceyrəsi, elementi sanki bütün Kainatın həyatını özünün "fərdi" qısa ömründə özünü ayrıca taleyi olaraq yaşayır.

Adil Əsədovun gəldiyi bu nəticə olduqca maraqlıdır: "Mən Kainatda yalnız materiyanın və enerjinin deyil, həm də obyektiv informasiyanın mövcudluğunu qəbul edirəm. Mən ... inamla təsdiq edə bilərəm ki, fotonlar və eləcə də digər lüksonlar məhz Tanrıdan gələn informasiyanın daşıyıcısıdırlar, bir qədər də dəqiqləşdirilərsə, fotonlar və digər lüksonlar - Tanrıdan gələn informasiyanı və enerjini dünyaya yayan başlıca vasitələrdir. Bu səbəbdən də Kainatda real olaraq mövcud olan yalnız materiya və enerji deyildir, həm də obyektiv informasiyadır... Kainatın bütün mahiyyəti haqqında informasiyalar həqiqətən də Tanrıda toplanmışdır." Bu, filosofun elmi sübutsuzluq çarəsizliyindən gəldiyi nəticə deyil, doğrudan da, nəinki fenomenal Kainatın, ümumiyyətlə, substansial varlığın yaranışını mümkün edən ilahi qüdrətin təsdiqidir.

Adil Əsədovun kitabı "Həyat"ın başladığı nöqtədə bitərək, ikinci nəfəsində dialoji sferaya açılır: "Maskulin və feminin başlanğıcların on dördüncü və sonrakı nəsillərinin təşəkkül tapması isə Kainatda həyat adlı möhtəşəm bir hadisənin təşəkkül tapmasından sonra baş verdi." Bu, fəlsəfi düşüncədə "Həyatın Uvertürası" nı oyandırır! Əvvəlki əsərlərinin örnəkləri əsasında demək olar ki, Adil Əsədov fikir klassiklərində olduğu kimi, öz fəlsəfi sistemini yaratmağa iddialı olan çağdaş mütəfəkkirdir. Bu o deməkdir ki, "ideya qalaktikasının formalaşması" hələ davam edir və Azərbaycan filosofu Kainatın Materiyadan Ruha doğru hərəkətində bütün fazaları birər-birər arayacaq, Kainatın özünü görən gözünün nə qədər bəsirətli olduğunu, İnsanı yer planetində təsadüfən yaratmadığını bir daha təsdiq edəcəkdir!

Azərbaycanın daim axtarışda və tapıntıda olan alimi Adil Əsədovun "Kainat və onun inkişaf mərhələləri" kitabından sonra, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəylinin "Gözəllikdən Teatr Estetikasına" adlı dəyərli ön sözü ilə başlayan, mövzu və problematikası ölkəmizdə ilk dəfə qaldırılan "TEATR VƏ PROTO-TEATR: teatrın mahiyyəti və təşəkkül xüsusiyyətləri fəlsəfi refleksiya kontekstində" əsərini yazması yetərincə təbiidir. Yaradılışı və mövcudluğu ziddiyyətlərsiz mümkün olmayan varlığın mahiyyətinə enməyə çalışan filosofun o varlığın dramatik-teatral ekzistensiyasına varması qaçılmaz idi. Adil Əsədov, doğru olaraq, teatrı təkcə bəşər sivilizasiyasının yaratdığı bir incəsənət forması kimi deyil, həm də kainatın sanki mövcudluq forması kimi idrak edir. Kainatın təkamülü və bu təkamül nəticəsində Günəş sistemi və onun da strukturunda Yer planetinin, bu planetdə canlı həyatın, canlı həyatın ali varlığı kimi İnsanın yaranması və nəhayət, İnsanın sivilizasiya həyatına başlaması və həmin sivilizasiyanın bətnindən teatrın doğulması bir-birini yetişdirən mərhələlərdir. İnsan Teatrı Kainat Teatrının bir səhnəsidir!

Kainat teatrı kosmodialoq modelindədir. Bu teatrın da baş qəhrəmanları Harmoniya və Xaosdur. Harmoniya və xaos varlığın ziddiyyətdə olan əbədi qarşı-substansiyası kimi bir-birindən ayrılıqda mövcud olan yox, bir-birindən törəyən hadisələrdir: harmoniya xaosu, xaos harmoniyanı doğurur. Kainatda onların kosmomonoloqu yox, kosmodialoqu baş verir; Ancaq xaos, disharmoniya yalnız harmoniya qanunlarının fəaliyyət sferasında müəyyən zaman və məkan kəsiyindəki pillələrdir. Məhz harmoniya qanunları içrə harmoniya və xaosun əbədi dialektikası təzahür edir. Yəni varlığın əbədi və başlıca mənası, mövcudluq prinsipi - xaosun harmoniyaya tabe olmasıdır. Harmoniya sonsuz, əbədi proses, xaos isə bu əbədi, sonsuz prosesin zəruri, qaçılmaz "buğumları", "düyünləri", "intervallarıdır"; Kainatın ümumi hərəkət və təkamülü, kosmosferin, onun daxili inkişafı kimi günəş sisteminin, bu sistemdə yer planetinin, burada biosfer və noosferin yaranışı, üzvi aləmin təşəkkülündə filogenez və ontogenez proseslərinin (bütövün və onun hissələrinin) vəhdəti, koevolyusiya sisteminin formalaşması, psixosferin idarəedici qüvvəyə çevrilməsi və onun daimi olaraq ilkbaşlanğıca - kosmosferə can atması məhz harmoniya qanunları əsasında baş verir.

Kainat Teatrı Rejissorunun - Dialektikanın qarşılıqlı bağlılıqda olan üç qanunu - əksliklərin vəhdəti və mübarizəsi, inkarı inkar və kəmiyyət dəyişmələrinin keyfiyyət dəyişmələrinə keçməsi qanunları - ayrılıqda və bir-biri ilə münasibətdə ümumdünya harmoniyası qanununun tərkib hissələri kimi fəaliyyət göstərir. Varlığın universal əlaqələri, interaktivliyində mövcudlaşan sistemlərin və altsistemlərin daxili əlaqəliliyi məkan, zaman və hərəkət harmoniyasının pillə, mərhələ və proseslərində sinergiyalaşır. Harmoniya qanunu əsasında (1) varlıq - dünyaya, (2) hərəkət - dinamikaya, (3) zaman - tarixə çevrilir, (4) biosferin - antroposfer, (5) kosmoloqosun - psixoloqos, (6) təbiətin - mədəniyyət fazası yaranır. Beləliklə, varlıq - dünya - insan yaradılışının bir-birini tamamlayan, homosivilizasiyanı planet həyatının mühüm təkamül aktına çevirən ilk böyük meqafazası başa çatmış və yenisinə keçilişin şərtlərini meydana gətirmiş olur.

Bütün canlı aləmdə xüsusilə həyatın iki mühüm aktı - cütləşmə (insanlarda sevişmə) və ovlama az qala ritual səviyyədə teatral mahiyyət kəsb edir. Demək olar ki, bütün canlılar ovu ilə oynayır. Pələng porsuqla, pişik siçanla, köpək balığı suiti ilə, şuiti balıqla..., qalib əsgər məğlub əsirlə oynayır. Özü də bu sadəcə "oyun" deyil, əslində, ölüm-qalım dramıdır. Sivilizasiya isə başdan-başa teatrallaşmış bir səhnədir. Tarixin ayrı-ayrı çağlarında bu səhnəyə ayrı-ayrı qəbilələr, xalqlar, dillər, dövlətlər, cəmiyyətlər, dinlər, ideologiyalar, personal səviyyədə siyasətçilər, diplomatlar, alimlər, o səhnənin yan-yörəsində bir-birinin tayasını yandıran bığıburma kişilər, bir-birinə tapança çəkən qoçular- əsgər bəylər... çıxır.

Meqafaunada (planetin canlı sferası) olduğu kimi, meqaflorada da (planetin bitki sferası) dramatik teatr yaşanılır. "Ərazi fatehliyi" bitkilərin həyat prinsipidir. Hündür ağacların kölgəsində məhv olmaq istəməyən bir kol al günəşin qızmarında "özünü yandırır" ki, həmin hündür ağaclar da külə dönsün! Meşədə ətrafını yandıran həmin kol yenidən kök diblərindən göyərir və fatehlərin ərazisini fəth edir! Kosmosferada da bu proses yaşanılır. Kainatın bətnində hətta qalaktikalar, metaqalaktikalar bir-birini "yeyir". Qara dəlik, anti-materiya təkcə dağıdıcı, məhvedici deyil, həyatyaradıcı proseslərin başlanğıcıdır. Kainat Dramının estetikası İnsan Dramının estetikasına ən dərin stixiyasında proyeksiya olunur... Biz sezsək də, sezməsək də, o "təbii" dramın gərginliyini, cazibəsini antropoloji mahiyyətimizdə, hüceyrələrimizlə duyur, yaşadırıq...

Professor Adil Əsədovun əsas paradiqması - "teatr insani mahiyyət və insanın real mövcudluğu arasında yaşanan ziddiyyətin kütləvi nümayişi kimi" formullaşdırılaraq irəli sürülür. Bu ideya estetikanın təməl kanonikasına söykənir: təkcə teatr deyil, bütövlükdə incəsənət, təbii ki, həm də ədəbiyyat mahiyyətində harmoniyanı əks etdirən "ideal dünya" ilə mahiyyətində xaosu gizlədən "real dünyanın" toqquşan və barışan ziddiyyətli münasibətlərinin bədii dərkidir. Öz "insani mahiyyətini" tapa bilməyən dünya elə öz ziddiyyətləri içərisində qıvrılır, qovrulur. Teatr həm də bu qıvrılma və qovrulmanın estetik yaşantısıdır. "İnsani mahiyyətlə onun real mövcudluğu arasında yaşanan ziddiyyətin" teatrı - təzadların gərilmiş dramatik təcəssümündə "dram" olur, komik təcəssümündə "komediya" olur, tragik təcəssümündə "faciə" olur. Georq Vilhelm Fridrix Hegel komizmin əsasını daxili çatışmazlığın zahiri özünütəsdiqə can atması gülünclüyündə görürdü. Onun fikrincə, Aristofan komediyalarının estetik dəyəri bundadır ki, o, gerçək substansial mahiyyətini itirmiş məxluqların məhz belə bir mahiyyətə malik olmaq iddiasına gülə və güldürə bilir. Hegelə görə, dünyanın durumu faciəvi və komik ola bilər. Tərəqqi Ruhun mahiyyətini və ideallarını əks etdirən substansial başlanğıcın təntənəsindən özünə yol açır. Sonra Ruh daxilindəki nizamı taparaq "aram vəziyyət" alır, bunun da ardınca tarixin komediya fazası başlayır. Yeri gəlmişkən deyim ki, Karl Marks Hegelin bu ideyasını özünün məşhur aforizmində belə cizgiləmişdi: "Tarix iki dəfə təkrar olunur: əvvəl faciə, sonra fars şəklində." Bu "transformasiya", deyəsən, incəsənət tarixində də öz əksini tapır: realizmdən sonra sürrealizmin yaranması onun komediyası deyilmi?!

Xüsusilə bu gün bəşəriyyətin "gülüş mədəniyyəti" (M.Baxtin) onun estetik dünyagörüşünün, yaradıcılıq qabiliyyətinin böyük sərvəti kimi tarixən gəldiyimiz yolun, müasir sivilizasiyanın dərkində ən kəsərli vasitələrdən biridir. Bu Mədəniyyətin Beşiyi - Teatrdır.

**Rahid ULUSEL**
**AMEA-nın Ədəbiyyat İnstitutunun baş elmi işçisi, fəlsəfə elmləri doktoru, professor**
**Fəlsəfə Cəmiyyətləri Beynəlxalq Federasiyasının üzvü**

# Akademiyanın həqiqi və müxbir üzvləri akademik Zemfira Səfərova haqqında

**"Akademiyanın həqiqi və müxbir üzvləri akademik Zemfira Səfərova haqqında" adlı kitab nəşr olunub.**




Kitabda AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun Musiqi tarixi və nəzəriyyəsi şöbəsinin müdiri, Azərbaycanın Əməkdar elm və incəsənət xadimi, "Şöhrət" ordenli akademik Zemfira Səfərova haqqında akademiyanın həqiqi və müxbir üzvləri, Azərbaycanın görkəmli bəstəkarı, SSRİ Xalq artisti akademik Qara Qarayev, SSRİ Xalq artisti AMEA-nın müxbir üzvü Fikrət Əmirov, Azərbaycan Bəstəkarlar İttifaqının sədri Xalq Artisti Firəngiz Əlizadə, Xalq yazıçısı akademik Mirzə İbrahimov, akademik Firudin Köçərli, akademik Tofiq Hacıyev, akademik Rasim Əfəndiyev, akademik Bəkir Nəbiyev, akademik Rafael Hüseynov və AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin müxtəlif illərdə kitablarda, məcmuələrdə, qəzetlərdə dərc edilmiş fikir və düşüncələri yer alıb,

Kitabın "Ön söz"ünün müəllifi Musiqi tarixi və nəzəriyyəsi şöbəsinin aparıcı elmi işçisi, sən.ü.f.d., dosent, Əməkdar Mədəniyyət işçisi Ülkər Talıbzadə, kompüter tərtibçisi şöbənin kiçik elmi işçisi Tutu Hüseynovadır.

# Bir daha vahid/bütöv Azərbaycan ərazisi haqqında

**AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda İran tarixi və iqtisadiyyatı şöbəsinin müdiri tarix üzrə fəlsəfə doktoru, dosent Vidadi Mustafayevin "Bir daha vahid/bütöv Azərbaycan ərazisi haqqında" kitabı çapdan çıxıb.**




Kitabda İranda Cənubi azərbaycanlılara qarşı aparılan irqi ayrı-seçkilikdən, Cənubi azərbaycanlıların Şimali azərbaycanlılarla birlikdə türk xalqlarından biri olmasını, Azərbaycan toponiminin Şimali Azərbaycana şamil edilməsini inkar etmək siyasətindən bəhs edilir.

Müəllif panfarsistlərin Azərbaycan xalqına qarşı mübarizənin tərkib hissəsi kimi "Azərbaycan" toponiminə qarşı 3 istiqamətdə Şimali Azərbaycan Azərbaycan adlanmasına qarşı "elmi"- ideoloji mübarizə, Azərbaycanın (Cənubi) vahid inzibati-ərazi vahidi kimi qalmasına qarşı hüquqi-inzibati mübarizə, Azərbaycan sözünün (Cənubi Azərbaycan) bir toponim kimi işlənməsinə qarşı informativ mübarizə apardıqlarını qeyd edir.

# Xalisəqarızadə kitabxanasının kataloqu

**Bu günlərdə AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Elmi şurasının qərarı ilə "Əbdülqəni Əfəndi Nuxəvi Xalisəqarızadə kitabxanasının kataloqu" kitabının II cildi işıq üzü görüb.**




İnstitutun Ərəbdilli əlyazmaların tədqiqi şöbəsinin müdiri fil.e.d., professor Kamandar Şərifovun tərtib etdiyi bu kitaba AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun fondunda qorunan Əbdülqəni Əfəndi Nuxəvi Xalisəqarızadənin kitabxanasına aid olan əlyazmaların geniş elmi təsviri toplanıb. Kataloqa biblioqrafik ixtisarlar, müəllif adlarının, əsər və kitab adlarının həm latın qrafikalı Azərbaycan, həm də ərəb əlifbası ilə yazılmış göstəriciləri, o cümlədən təsvir olunmuş əlyazmaların şifrə göstəricisi əlavə olunub.

Qeyd edək ki, yeni nəşrin elmi redaktoru Əlyazmalar İnstitutunun direktoru akademik Teymur Kərimli, kompüter icraçısı isə institutun Ərəbdilli əlyazmaların tədqiqi şöbəsinin tərcüməçisi Nuranə Çələbiyevadır.

**Bu il anadan olmasının 100 ili tamam olan Əta Tərzibaşı İraqda yaşayan türkman soydaşlarımızın ən görkəmli alimlərindən biridir. İxtisasca hüquqşünas olan Ə.Tərzibaşı uzun illər türkmanların dili, folkloru, ədəbiyyatı, tarixi, musiqisi ilə bağlı elmi-tədqiqatlar aparmış, əsərləri İraqla yanaşı Türkiyədə, Azərbaycanda, İranda və bir çox ərəb ölkələrində nəşr olunmuşdur.**

Əta Tərzibaşı hələ XX əsrin ortalarında etnik cəhətdən bağlı olduğu Azərbaycanla daim maraqlanmış, öz əsərlərində türkmanların Azərbaycan türkləri ilə eyni soy kökə malik olması faktını dönə-dönə qeyd etməklə yanaşı, Azərbaycan folklor nümunələrini tədqiq etmiş, klassik İraq-türkman ədəbiyyatını Azərbaycan ədəbiyyatının bir qolu kimi araşdırmışdır. Təsadüfi deyil ki, alim klassik Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri olan Qazi Bürhanəddini, İmadəddin Nəsimini, Cahanşah Həqiqini, Əbdülqədir Marağayini, Məhəmməd Füzulini, Ruhi Bağdadini, Şah İsmayıl Xətaini həm də İraq-türkman ədəbiyyatına aid etmişdir. Alimin uzun illər dahi Azərbaycan şairi Məhəmməd Füzuli ilə bağlı apardığı tədqiqatlar ona füzulişünas kimi də şöhrət qazandırmışdır. Əta Tərzibaşı təkcə klassik Azərbaycan şairlərini deyil, XX əsrdə yazıb-yaradan azərbaycanlı fikir adamlarını da tədqiq etmiş, onların həyat və yaradıcılığına yaxından bələd olmuşdur. Görkəmli tədqiqatçı 1964-cü ildə "Qardaşlıq" dərgisində Məhəmmədhüseyn Şəhriyarla bağlı geniş məqalə dərc etdirmişdir. Bundan əlavə onun "Şimali Azərbaycanda türkmanoloji araşdırmalar", "Kitablar arasında Təbrizdən gələn yanğılı bir səs", "Məktublaşma ədəbiyyatı və Füzulinin bir qəzəli", "İraq-türkman ədəbiyyatına toplu bir baxış" və s. məqalələrində Azərbaycanla bağlı fikirlərinə rast gəlirik. Tərzibaşı Azərbaycanlı alimlərin də tədqiqatları ilə yaxından maraqlanmış, Xalq şairi Rəsul Rza, Qəzənfər Paşayev, Mirzağa Quluzadə, Abbas Zamanov, Məhəmmədhüseyn Təhməsib, Ayaz Vəfalı kimi elm adamları ilə dostluq münasibətində olmuşdur.





Əta Tərzibaşının haqqında məqalə yazdığı Azərbaycanın görkəmli şəxsiyyətlərindən biri də Əhməd Ağaoğludur. Ərəb dilində yazılan məqalə Misirin "əl-Risalə" dərgisində 1952-ci ildə işıq üzü görmüşdür. Uzun müddət alimlərimiz belə bir məqalənin varlığından xəbərsiz olublar. Əhməd Ağaoğlu haqqında biblioqrafiyada da Əta bəyin bu məqaləsi yer almayıb (Bax: "Əhməd Ağaoğlu-Böyük narahat adam". Tərtib edənlər: H.İsaxanlı, M.Karahan. Bakı: Xəzər Universiteti nəşriyyatı, 2022-ci il). Maraqlıdır ki, Əta Tərzibaşı ilə bağlı İraqda və Türkiyədə yazılan yazılarda da bu məqalənin üstündən sükutla keçilmişdir. Əta Tərzibaşının "Türkiyədə fikir adamlarından Əhməd Ağaoğlu" məqaləsini Azərbaycan dilinə Dr.Şəmsəddin Kuzəçi çevirmişdir.

Mövzunun aktuallığını nəzərə alaraq məqaləni ilk dəfə və tam şəkildə təqdim edirik:

# Türkiyədə fikir adamlarından Əhməd Ağaoğlu

*(Əta Tərzibaşının Əhməd Ağaoğlu haqqında məqaləsi. "əl-Risalə", №1007, miladi 1952-ci il)*

Professor Əhməd Mustafa əl-Xətib türk yazar Əhməd Ağaoğlunun "Azad insanlar ölkəsində" adlı kitabının tərcüməsini nəşr etdirir. Bu münasibətlə biz bu yazarın həyatı və mədəni dəyərləri haqqında etibarlı türk mənbələri əsasında oxuculara bir neçə kəlmə təqdim etmək qərarına gəldik.

Əhməd Ağaoğlu Türkiyədə mətbuat və təhsil sahəsində öndə gələn ziyalılardan sayılır. Bu sahədə önəmli bir simadır. Müsəlmanların müqəddəs fikirlərini və Şərqi Avropa mətbuatında tanıtmağa başladığı andan bəri Əhməd Ağaoğlunun ulduzu Qərbdə parlamağa başladı.

Fransız və rus dillərini yüksək səviyyədə bilən Ağaoğlu Şərqi, şərqliləri və İslamı müdafiə etmək məqsədilə Qərb mətbuatında bir-birindən dəyərli araşdırma məqalələri dərc etdirərək avropalılarda dərin izlər buraxdı. Bir ziyalı olaraq şəriət və Şərq məsələlərində də mütəxəssis idi. Hüquqşünas olaraq da Hüquq fakültəsində uzun müddət müəllimlik etdi, konstitusiya hüququ haqqında hər kəsin bəyəndiyi və təqdir etdiyi bir kitab yazdı.

Əhməd Ağaoğlunun fəaliyyəti təkcə bu sahə ilə məhdudlaşmadı. O, digər sahələrdə də uğur qazandı. İslama xidmət edərək, müsəlman cəmiyyətləri arasında məshəb ayrıseçkiliyindən, sünni və şiəlikdən irəli gələn qarşıdurmalara son qoyulması üçün mübarizə apardı. Müsəlmanlar arasında kin, nifrət və düşmənçiliyə qarşı "döyüşdü". Müsəlmanları parçalanmaqdan uzaq durmağa, birləşməyə dəvət etdi. Ona bu mübarizəsində ərəb və fars dillərini bilməsi də yardımçı oldu. O, müsəlman cəmiyyətləri arasında mövcud olan bütün ictimai mövzuları bilmək bacarığına sahib idi.

Unutmayaq ki, Ağaoğlu həm də bir yazıçı olaraq yazdığı möhtəşəm hekayələri, insanları valeh edən üslubu ilə fərqlənirdi. O, mövzuları çox həssaslıqla seçirdi. Onun hekayələrini oxumağa başlayan insan oxuyub bitirmədən gözlərini yazıdan çəkə bilmirdi.

Ağaoğlu 1869-cu ildə Azərbaycanın Qarabağ bölgəsində yerləşən Şuşada doğulmuşdu. Atası Mirzə Həsən böyük alim idi. Ağaoğlu ilk təhsilini doğulub böyüdüyü şəhərdə aldı. Təhsilini davam etdirmək üçün Tiflisə, ali təhsil almaq üçünsə Peterburqa getdi. Mühəndislik İnstitutuna imtahan verərək qəbul edildi. Ancaq göz xəstəliyinə tutulduğu üçün öz vətəninə qayıtmaq məcburiyyətində qaldı.

1894-cü ildə Azərbaycana dönən Əhməd Ağaoğlu müəllim işləməyə başlayır. Azərbaycanda dostları İsmayıl Qasprinski, Hüseyn Zadə və Əli Mərdanla (İsmayıl Qaspralı, Əli bəy Hüseynzadə və Əlimərdan bəy Topçubaşov nəzərdə tutulur - O.İ) birlikdə millətçilik hərəkatını canlandırmağa və yaşatmağa başladı. Türk dilində iki jurnal çıxararaq, Azərbaycanda təhlükəli ictimai məsələlərin yayılmasının qarşısını aldı. Əslində, Ağaoğlunun məqsədi Azərbaycanda və Rusiyanın müxtəlif bölgələrində yaşayan müsəlmanlar arasında birlik, bərabərlik yaratmaq idi. Rusiya hökuməti Ağaoğluya qarşı çıxdı. Osmanlı inqilabından sonra 1908-ci ildə Türkiyəyə getdi. Türk hökuməti onu Maarif Nazirliyində müfəttiş vəzifəsinə təyin etdi. Ancaq İttihad və Tərəqqi partiyasının üzvü olduğu üçün bu vəzifədən imtina etdi.

Əhməd Ağaoğlu İstanbulda olduğu müddətdə böyük ideoloq Ziya Gökalp başda olmaqla bir çox ziyalı və yazıçılarla tanış oldu. Nəticədə milli və ictimai məsələlərdə olan problemləri həll etmək üçün "Türk Yurdu" jurnalını nəşr etməyə başladı.

1910-cu ildə İstanbul Sənət evində müəllim olaraq işə başladı. Rus və türk dillərindən dərs dedi. Eyni zamanda "Tərcümani-Həqiqət" jurnalının redaktoru kimi fəaliyyət göstərdi.

Birinci Dünya Müharibəsi zamanında, 1915-ci ildə Afyon şəhərindən millət vəkili seçildi. Dolayısı ilə İttihad və Tərəqqi partiyasının mərkəzi idarə heyətinin üzvü seçildi.

1917-ci ildə Qafqaz cəbhəsində döyüşən Türk ordusuna siyasi müşavir təyin edildi. Müharibədən sonra İstanbula qayıdan Ağaoğlunu ingilislər Malta adasına sürgün etdilər. Sürgündə qaldığı 3 il ərzində "Üç mədəniyyət" kitabını yazdı. Azad olunandan sonra Mətbuat (Mətbuat və İstixbarat Müdiriyyəti-Ümumi - O.İ.) müdiri təyin edildi.

Atatürkün məlum inqilabından sonra Cümhuriyyət Haqq Partiyasına üzv olan Ağaoğlu Rusiya sərhədlərinə yaxın Qars şəhərindən millət vəkilliyinə namizəd olur və iki dəfə millət vəkili seçilir. Əhməd Ağaoğlu həmin dönəm də Ankara Universitetində Hüquq fakültəsində vəzifə sahibi idi və ayrıca olaraq "Hakimiyyət və Milliyət" qəzetinin də baş redaktoru kimi çalışırdı.

Əhməd Ağaoğlu Atatürkün müxalifətə yaratdığı imkan nəticəsində Müstəqil Müxaliflər Partiyasının yaradıcıları sırasında yer alır. Türkiyə Böyük Millət Məclisindəki çəkişmələr və anlaşılmazlıqlar nəticəsində ortaya çıxan parçalanma səbəbilə Atatürk başa düşür ki, Türkiyədə siyasi düşüncə formalaşmadığı müddətdə ölkədə demokratik sistem tətbiq etmək çətindir. Nəticədə Atatürk Müstəqil Müxaliflər Partiyasının ləğv edilməsinə dair qərar qəbul edir. Bu hadisələrdən sonra Əhməd Ağaoğlu siyasətdən uzaqlaşaraq universitetdə müəllimlik peşəsinə davam etmək istəyir. Daha sonra İstanbul Sənət Evində vəzifəyə təyin edilir. 1933-cü ilə qədər orada dərs deyir və həmin ildə təqaüdə çıxır. Ağaoğlu eyni ildə "Akın" qəzetini çıxararaq mətbuat və yazıçılıq həyatının son illərini yaşayır.

Əhməd Ağaoğlu 19 may 1939-cu ildə vəfat edir.

*Əsərləri:*

1. Cəfəri məzhəbi, 1892-ci il;
2. İslam və şiə alimləri, 1900-cü il;
3. İslamda qadın və şiəliyə baxış, 1901-ci il;
4. Üç mədəniyyət, 1920-ci il;
5. Hindistan və İngiltərə, 1927-ci il;
6. Azad insanlar ölkəsində, 1931-ci il;
7. Atika (tərcümə), 1931-ci il;
8. Mən nəyəm?, 1939-cu il;
9. Türk təməl təşkilatı və türk qanunvericilik tarixi dərsləri, 1941-ci il.
10. Qəlbdən olmadan olmaz, ixtilalmı, inqilabmı?, 1942-ci il.

Qeyd: Məqalədə qeyd olunan əsərlərin adında və nəşr olunma illərində səhvlərin olduğunu istisna etmirik.

Əhməd Ağaoğlunun vəfatından sonra oğlu Əbdülsəməd Ağaoğlu onun bir neçə əsərini çap etdirmişdir. Bundan əlavə "Rus ədəbiyyatı", "Xatirələrim", "Anayasaya inamım", "Türk inqilabı" və digər əsərlərini də çap etdirməyə çalışmışdır.

**Orxan İSAYEV**
**AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi işçisi**

## ELAN-MÜSABİQƏ

### Ədəbiyyat İnstitutu

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ştatda vakant olan vəzifələri tutmaq üçün müsabiqə elan edir:

**Ortaq başlanğıc və İntibah dövrü Azərbaycan ədəbiyyatı şöbəsi üzrə**
baş elmi işçi - 1 yer
aparıcı elmi işçi - 1 yer
**Ədəbiyyat nəzəriyyəsi şöbəsi üzrə**
aparıcı elmi işçi - 1 yer
böyük elmi işçi - 1 yer
**Cənubi Azərbaycan ədəbiyyatı şöbəsi üzrə**
baş elmi işçi - 1 yer
aparıcı elmi işçi - 1 yer
**Türk xalqları ədəbiyyatı şöbəsi üzrə**
baş elmi işçi - 1 yer
**Azərbaycan-Asiya ədəbi əlaqələri şöbəsi üzrə**
böyük elmi işçi - 1 yer

Sənədlər müsabiqənin tələblərinə uyğun olaraq, elan dərc edilən gündən etibarən bir ay müddətində aşağıdakı ünvana təqdim edilməlidir:

**Ünvan: AZ 1143, Bakı şəhəri, Hüseyn Cavid prospekti 117, V mərtəbə, 501-ci otaq. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu**

### Dilçilik İnstitutu

Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu ştatda vakant olan vəzifəni tutmaq üçün müsabiqə elan edir:

**Hind-Avropa dilləri şöbəsi üzrə**
aparıcı elmi işçi -1 yer

Müsabiqədə filologiya üzrə fəlsəfə doktorları və elmlər doktorları iştirak edə bilərlər. Sənədlər müsabiqənin tələblərinə uyğun olaraq, elan dərc edilən gündən etibarən 1 ay müddətində elmi katibliyə təqdim edilməlidir.

**Ünvan: AZ1143, Bakı ş., H.Cavid pr., 117, V mərtəbə**
**Elmi katib: (+994 12) 5372088**

# Yeni kəşf insanlarda müxtəlif görmə qüsurlarının müalicəsində istifadə oluna bilər

**Hollandiya Neyrologiya İnstitutunun alimləri kəşf ediblər ki, beynin kiçik və tez-tez diqqətdən kənarda qalan, superior kollikulus kimi tanınan hissəsi görmə və qavrayışda mühüm rol oynayır.**



Tədqiqat "eLife" elmi jurnalında dərc olunub.

Məlumdur ki, beynin xüsusi bir sahəsi, vizual korteks vizual məlumatın işlənməsindən məsuldur. Eyni zamanda, görmə korteksi daha az inkişaf etmiş, lakin funksional görmə qabiliyyətinə malik heyvanlar var.

Bu müşahidələr mütəxəssisləri görmə qabiliyyətinin beynin digər hissələrindən asılı olduğu fikrinə gətirib çıxarıb. Neyroloqlar üstün kollikulusa diqqət yetiriblər, çünki bu, onurğalıların bütün siniflərində mövcud olan təkamül baxımından qədim bir quruluşdur.

Tədqiqatçılar siçanlar üzərində eksperimentlər aparıblar, çünki onların insana anatomik oxşarlığı və həm görmə qabığının, həm də üstün kollikulusun olmasıdır. Testlər gəmiricilərə müxtəlif fonlarda formaları tanımaq və onlara cavab vermək üçün öyrədilmiş 16 sınaqdan ibarət olub.

Elm adamları daha sonra superior kollikulu müvəqqəti olaraq deaktiv etmək üçün işıqdan istifadə ediblər. Məlum olub ki, bu vəziyyətdə heyvanlar hələ də rəqəmlərə cavab verə biliblər, lakin təqdim olunan görüntüləri tanımaq onlar üçün xeyli çətinləşib.

Beyin fəaliyyətinin təhlili beynin müəyyən sahələrində neyronların xarakterik aktivləşməsini göstərib. Neyroloqların fikrincə, bu, obyektlərin aşkarlanmasına xidmət edən ixtisaslaşmış sinir kodunu göstərir. Bundan əlavə, təcrübə beyndə vizual məlumatın işlənməsi üçün paralel yolların olduğunu da göstərib.

Mütəxəssislər qeyd ediblər ki, onların kəşfi insanlarda müxtəlif görmə qüsurlarının müalicəsində istifadə oluna bilər.

**Redaksiya heyəti:**
İsa Həbibbəyli, Arif Həşimov, Dilqəm Tağıyev, İbrahim Quliyev, Nərgiz Paşayeva, Rasim Əliquliyev, Tofiq Nağıyev, İradə Hüseynova, Gövhər Baxşəliyeva, Cəmil Əliyev, İsmayıl Hacıyev, Fuad Əliyev

**Baş redaktor:** Ağahüseyn Şükürov

**Ünvan:** AZ 1001, Bakı, İstiqlaliyyət küçəsi 30. Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti
**e-mail:** elm.nauka.gazet@gmail.com

**Tiraj: 2000**

# НАУКА

Сила в науке...
Низами Гянджеви

ELM
Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı
SCIENCE
Newspaper of the Presidium of the Azerbaijan National Academy of Sciences

Орган Президиума Национальной академии наук Азербайджана

№ 05 (1402) ❖ Пятница, 9 февраля 2024 года ❖ Газета выходит с 1984 года





# Всенародный выбор

## Голосуя за Президента, граждане выбирали и Верховного Главнокомандующего

**Внеочередные президентские выборы, девятые по счету за всю историю независимости Азербайджана, - первые выборы, которые прошли в условиях полного восстановления территориальной целостности и суверенитета Страны огней.**

7 февраля, в день президентских выборов, по всей стране открылись двери свыше 6,3 тыс. избирательных участков. Число избирателей составило около 6,5 млн человек. Для проживающих за рубежом граждан республики в 37 странах было открыто 49 избирательных участков. Сам факт того, что за выборами в Азербайджане следили 63 международные медиаорганизации из Турции, России, Германии, Италии, Японии и других стран, говорит об их демократичности, объективности и прозрачности.

Отличительной особенностью этих выборов было то, что избирательные участки открылись также в районах, освобожденных от армянской оккупации. Таким образом, впервые за 30 лет президентские выборы прошли на всей территории Азербайджана.

### Безальтернативный лидер

В Азербайджане прошли президентские выборы с массовой активностью электората, но без ажиотажа вокруг маргинальной оппозиции, о существовании которой вряд ли кто вспомнил в течение двух месяцев со дня подготовки к избирательному процессу. А это - показатель новой политической культуры, когда соискатели должности №1 не брызжут слюной в попытках переругаться друг с другом, а аргументированно предъявляют аудитории собственные преимущества.

Впрочем, Президент Ильхам Алиев, со значительным отрывом выигрывающий все гонки, никогда в дебатах не участвует, противопоставляя словам оппонентов достижения прошедших лет, тем самым давая понять, что населению стоит готовиться к продолжению коренных улучшений в быту и новым успехам на международной арене. Хотя привычных к положительной мотивации граждан Азербайджана сегодня трудно чем-то удивить, так как исполнилось их самое заветное желание - провести новый цикл президентских выборов на территории всей страны впервые после того, как Национальная армия вернула контроль почти над всеми населенными пунктами по итогам Отечественной войны 2020 года, а затем добилась разоружения боевых частей сепаратистов и полного восстановления государственного суверенитета благодаря точечной военной операции 19-20 сентября прошлого года.

